www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 oktyabr 2018-ci il Cümə № 221 (7110) Qiymәti 60 qəpik

**Xəbər**

## MTN-in iki generalı yenidən məhkəmə qarşısında

yazısı səh.3-də

**Gündəm**

### Bu gün Türkiyədə SOCAR-ın "Star" zavodunun açılışıdır




Prezident İlham Əliyevin ideya müəllifi olduğu daha bir meqa-layihə işə düşür; iki ölkə başçısı İzmirdəki neft emalı zavodunun açılışında bir araya gələcək

yazısı səh.4-də

### Sabiq nazir müavini Musa Məmmədovun kürəkəni güllələndi - təfərrüat

yazısı səh.7-də

### Krımda "ikinci ADNA" terroru - Bakıdakı məktəblər necə qorunur...

yazısı səh.6-da

### Əli İnsanovun həbsinin 13-cü ili

yazısı səh.5-də

### Azərbaycan-AŞ PA əlaqələri pisləşə bilər - ölkəmiz əleyhinə qətnamə

yazısı səh.9-da

### "Exchange"lərin açılması ilin sonuna qaldı

yazısı səh.6-da

### Yeni milli turizm brendi təqdim olundu

yazısı səh.10-da

### Hacı Qaliblə bağlı 4 maddə ilə cinayət işi araşdırılır

yazısı səh.7-də

### ABŞ neftin qiymətinə nəzarəti ələ almağa çalışır - NOPEK qanunu nədir?

yazısı səh.12-də

### Avtobus qəzaları davam edir: sərnişindaşıma "bir əldə" cəmlənməli

yazısı səh.14-də

### Badamdarda sürüşmə gərginliyi - torpaq "altında" kim qalacaq?

yazısı səh.11-də

# ERMƏNİSTANLA "HAQQ-HESAB" GÜNÜ YAXINLAŞIR - BAKI ÜÇÜN YENİ SİTUASİYA

Kreml İrəvana qarşı hələ ki gözləmə mövqeyindədir, amma...; "kartlar" ayyarıma açılacaq; işğalçı ölkə iki "dalaşan fil"in - ABŞ və Rusiyanın ayaqları altında "ot"a çevrilə bilər...




yazısı səh.9-da

## Baş nazirin işdən çıxardığı məmurlar - dosye

Novruz Məmmədovun işdən çıxardıqlarından biri 1994-cü ildən NK-nın Hüquq şöbəsinin müdiri olan Günəş Vəliyevadır; onların dövlət qulluğuna da xitam verilib, bəs bu, hansı hallarda mümkündür?

yazısı səh.5-də



Bahram Hasanzada

### Azərbaycan hərbçilərinin sirrini yayan agent tutuldu

yazısı səh.3-də



### Con Boltonun bölgəyə səfəri başlayır

yazısı səh.8-də



### Eyyub Hüseynovdan 5 min eşşəyin hara yoxa çıxması barədə sensasion iddia

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018



## Şeyx Vyanaya gedir

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə 18-20 oktyabr tarixlərində Avstriyanın paytaxtı Vyana şəhərində səfərdə olacaq. QMİ-dən modern.az-a verilən məlumata görə, səfərdə məqsəd oktyabr ayının 19-da Vyanada keçiriləcək KAİCİİD Dialoq Mərkəzinin Direktorlar Şurasının növbəti - 19-cu sessiyasında iştirak etməkdir.**

Dünyanın ən nüfuzlu beynəlxalq hökumətlərarası təşkilatlarından olan KAİCİİD-in 9 nəfərlik Direktorlar Şurasında yer alan yeganə müsəlman dini lider Şeyxülislam Allahşükür Paşazadə qatılacağı sessiyanın gündəliyində bir sıra önəmli məsələlər, o cümlədən mərkəzin idarəetmə sistemində mühüm dəyişikliklərlə bağlı, o cümlədən insani resurslar barədə təqdimat, KAİCİİD idarəetmə strategiyası ətrafında müzakirələrin davam etdirilməsi nəzərdə tutulub. Toplantının proqramına dinlərarası dialoqa dair beynəlxalq dövlətlərarası koordinasiya məsələləri, həmçinin G20 çərçivəsində Dinlərarası Forumun inkişaf perspektivləri kimi qlobal əhəmiyyətli məsələlər daxildir.

Məlumat üçün bildirək ki, KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzi Səudiyyə Ərəbistanı, İspaniya, Avstriya tərəfindən təsis olunmuş və Vatikan dövlətinin baş müşahidəçi kimi çıxış etdiyi beynəlxalq hökumətlərarası təşkilatdır. Qurumun əsas vəzifəsi dünyada baş verən münaqişələrin qarşısını almaq, onları aradan qaldırmaq üçün dünya səviyyəsində dinlərarası və mədəniyyətlərarası dialoqu təşviq etməkdir.

Qərargahı Vyana şəhərində yerləşir.

## Rusiya NATO-nu Azov dənizinə buraxmadı



**Ukrayna və NATO Azov dənizində təlim keçirə bilməz. Bunu "RT Frans"a müsahibəsində Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. Onun sözlərinə görə, təlimin keçirilməsi üçün mütləq Rusiyanın razılığı lazımdır:**

"NATO-nun Rusiya sərhədində fəaliyyəti provokativ xarakter daşıyır. Ukrayna indi Azov dənizində təlim keçirmək istəyir, amma buraya artıq keçmək mümkün deyil. Ukrayna ilə olan razılığımız Azov dənizinə gəmilərin keçməsi üçün qarşılıqlı razılaşmanın olmasını tələb edir".

## Yaxın günlərdə hava necə olacaq?

**Azərbaycan ərazisində növbəti üç gün ərzində müşahidə olunacaq hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova bildirib ki, oktyabrın 19-u, 20-si və 21-də hava şəraitində mühüm dəyişiklik gözlənilmir.**

O bildirib ki, hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir: "Lakin səhər saatlarında bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyinin üstünlüyü müşahidə olunacaq".

Nazirlik rəsmisi əlavə edib ki, Bakıda və Abşeron yarımadasında havanın temperaturu 19-22, aran rayonlarında 21-25, dağlıq ərazilərdə isə 11-16 dərəcə isti təşkil edəcək".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

# Bir qrup KİV nümayəndəsi Gürcüstanda səfərdədir

**Prezident Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə bir qrup KİV nümayəndəsi oktyabrın 18-də Gürcüstana səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ilə əlaqədar fondun hazırladığı tədbirlər planı çərçivəsində təşkil olunan səfərin məqsədi jurnalistləri Cümhuriyyətin yaradıcılarının fəaliyyəti, zəngin ideya irsi ilə yaxından tanış etməkdir.

Səfər çərçivəsində KİV nümayəndələri Tiflisin mərkəzindəki Heydər Əliyev Parkını ziyarət ediblər.

Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov park barədə jurnalistlərə məlumat verib.

Azərbaycan mətbuatının nümayəndələri sonra Tiflisdəki Botanika bağında olub, buradakı köhnə müsəlman qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının məzarlarını ziyarət ediblər.

Qeyd edək ki, səfər çərçivəsində jurnalistlər Gürcüstan parlamentində, paytaxt Tiflisdə, eləcə də azərbaycanlıların yığcam yaşadıqları bölgələrdə bir sıra görüşlər keçirəcəklər.

## Serj Sərkisyan məhkəməyə verildi

**Ermənistan baş prokurorunun keçmiş müavini Armen Danielyan ölkənin sabiq prezidenti və baş naziri Serj Sərkisyanı məhkəməyə verib.**

"Report" xəbər verir ki, sabiq müavin işdən azad edilməsi barədə o vaxtkı prezident Serj Sərkisyanın sərəncamını qanunsuz sayır.

O iddia edib ki, 2008-ci il martın 1-də prezident seçkilərinin nəticələrinə qarşı keçirilən etiraz aksiyası ilə bağlı qəbul olunan qərarlara, habelə parlamentdə bu siyasi kampaniyanın nəticələrinin təsdiqlənməsinə müxalif olub.

Baş prokurorun keçmiş müavini müraciətində ölkədəki korrupsiyaya qarşı olduğunu da vurğulayıb.

## 12 qadının mobil telefonunu oğurlayan tutuldu

**Bakıda 12 qadının mobil telefonunu oğurlayan şəxs tutulub.**

Bu haqda Daxili İşlər Nazirliyindən məlumat verilib.

Bakı ŞBPİ-nin Cinayət Axtarışı İdarəsi və Nizami RPİ-nin 23-cü Polis Bölməsi əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari ilin sentyabr ayından oktyabrın 16-dək olan müddətdə rayon ərazisində ictimai nəqliyyatda və insanların sıx olduğu yerlərdə ümumilikdə 12 qadının çantalarından mobil telefonlarını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Oqtay Hüseynov saxlanılıb.

Araşdırma aparılır.



## Arda Turana FETÖ-çüdür?

**İstanbul Respublika Baş Prokurorluğu Əmrə Belözoğlu, Arda Turan, Okan Buruk və "Bursaspor" klubunun keçmiş baş məşqçisi Bülənt Qorxmazın FETÖ (Fəthullahçı Terror Təşkilatı - red.) ilə bağlantılarını araşdırır.**

Publika.az xəbər verir ki, bu haqda "Vətən" qəzetinin əməkdaşı Elif Altın yazıb.

Onun sözlərinə görə, məşhur futbolçular barəsində "FETÖ terror təşkilatına üzv olmaq", "Terror təşkilatına bilərək və istəyərək kömək etmək" maddələri üzrə istintaq aparılır.

Qeyd edək ki, oktyabrın 16-da Arda Turana üzvü olduğu İstanbulun "Başakşehir" klubu 2,5 milyon lirə pul cəzası verib.

Xatırladaq ki, Arda Turanla müğənni Berkay Şahin arasında baş verən dava səbəbindən futbolçu haqqında "cinsi istismar", "qanunsuz silah saxlamaq", "ümumi təhlükəsizliyi qəsdən aldatmaq" və "qəsdən yaralama" maddələri ilə cinayət işi açılıb. İstanbul Baş Prokurorluğu Arda Turanın 12,5 il, müğənni Berkay Şahinin şikayəti əsasında isə daha 2 ilə qədər həbs tələbi ilə ittiham aktı hazırlayıb.

## Azərbaycanda 9 uşaq əcnəbilərə verilib



**2018-ci ilin I yarısında Azərbaycanda 9 uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülüb.**

Modern.az rəsmi göstəricilərə istinadən xəbər verir ki, övladlığa verilən uşaqlardan 1-i qız, 8-i oğlandır.

Həmçinin əcnəbilər və ya vətəndaşlığı olmayanlara verilən uşaqlardan 1-i 1 yaşa qədər (oğlan), 2-si 1-5 yaşda olanlar (oğlan), 1-i 6-10 yaşlarında (oğlan), 5-i 11-17 ( 1qız, 4 oğlan) yaşlarında olub.

Xatırladaq ki, ötən il əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən 28 uşaq övladlığa götürülüb ki, onların da 12-si qız, 14-ü oğlandır.

## Türkiyə polisi İstanbul meşəsində Qaşıqçının meyitini axtarıb

**Türkiyənin hüquq-mühafizə orqanları İstanbulun Belqrad meşəliyində səudiyyə ərəbistanlı müxalif jurnalist, "Vaşinqton post" qəzetinin itkin düşən əməkdaşı Camal Qaşıqçının meyitinin axtarışlarını həyata keçiriblər.**

"Report" xəbər verir ki, təhlükəsizlik kameraları jurnalistin Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğuna getdiyi və orada itkin düşdüyü gün konsulluqdan çıxan avtomobillərin həmin istiqamətdə hərəkət etdiklərini qeydə alıb.

Meşəyə gələn kriminalistlər bütün kamera qeydlərini toplayaraq, axtarış aparıb. Bu qeydlər tam araşdırıldıqdan sonra polisin müəyyən bir ehtimal üzərində dayanacağı gözlənilir. Eyni zamanda İstanbul Şəhər Prokurorluğu C.Qaşıqçının itkin düşməsi ilə bağlı açıqlama yayıb. Bildirilib ki, istintaq beynəlxalq hüquq və müqavilələrə əməl etməklə bütün istiqamətlərdə davam edir:

"Növbəti mərhələlərdə ehtiyac yaranacağı halda, istintaq prosesi haqqında ictimaiyyətə məlumat veriləcək".

Qeyd edək ki, C.Qaşıqçı oktyabrın 2-də Səudiyyə Ərəbistanının İstanbuldakı Baş Konsulluğunun binasına daxil olduqdan sonra itkin düşüb.



## Nemət Pənahlı həbsdə qaldı

**Azərbaycan Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlı inzibati qaydada həbs olunması ilə bağlı məhkəmə qərarından apelyasiya şikayəti verib. "Report" xəbər verir ki, onun şikayətinə Bakı Apelyasiya Məhkəməsində baxılıb. Hakimin qərarına əsasən, N.Pənahlının şikayəti təmin edilməyib. Qeyd edək ki, keçən həftə Nəsimi Rayon Məhkəməsinin qərarına əsasən, ona İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) maddəsi ilə 30 sutka həbs cəzası verilib.**

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

# MTN-in iki generalı yenidən məhkəmə qarşısında

## Eldar Mahmudovun ən yaxın adamları olan Teymur Quliyev və Sübahir Qurbanov apelyasiya məhkəməsindən bəraət istəyir

**Oktyabrın 18-də ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev və Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanovun apelyasiya şikayətləri üzrə məhkəmə iclası başlayıb.**

Musavat.com xəbər verir ki, generalların və onların işçilərinin şikayətinə Bakı Apelyasiya Məhkəməsində hakim Sahibxan Mirzəyevin sədrliyi ilə baxılır.

Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov barələrində bəraət hökmünün çıxarılmasını istəyirlər.

Maraqlıdır ki, Əməliyyat-Texniki İdarənin rəisi, general-mayor Natəvan Mirvətova və polkovnik Füzuli Əliyev apelyasiya şikayətini geri götürüblər. Əməliyyat-Texniki İdarəsinin polkovniki Elşad Əzizov isə ümumiyyətlə apelyasiya şikayəti verməkdən imtina edib.

Yada salaq ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə Sübahir Qurbanov 14 il, Teymur Quliyev 12 il, Füzuli Əliyev 14 il, Zaur Məmmədov 10 il 6 ay, Natiq Alıyev 10 il 6 ay, Anar Şirəliyev 3 il, Eşqin Əliyev 3 il müddətinə azadlıqdan məhrum ediliblər.


Teymur Quliyev


Sübahir Qurbanov

Natəvan Mirvətovaya 5 il, onun idarəsinin əməkdaşı Fərhad Atayevə 3 il, Elşad Əzizov 3 il sınaq müddəti təyin edilməklə şərti cəza seçilib.

Şərti cəza alan təqsirləndirilən şəxslər məhkəmə iclas zalından azadlığa buraxılıb.

T.Quliyev "MTN işi"ndə ən mübhəm fiqurlardan biri olub. MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsində çalışmış Teymur Quliyev Eldar Mahmudovun "qara qutusu" hesab olunurdu. Məhz onun rəhbərlik etdiyi Monitorinq Mərkəzi bütün qanunsuz dinləmələri həyata keçirib. Bu dinləmələr isə təkcə hədəfdə olan sahibkarları əhatə etməyib. Məlumata görə, hakimiyyət təmsilçiləri də Teymur Quliyevin rəhbərlik etdiyi otaqdan dinlənilib.

Eldar Mahmudovun işdən çıxarılmasından dərhal sonra qapıları möhürlənən Monitorinq Mərkəzi illərlə bu kimi dinləmələr həyata keçirib, iddialar var ki, danışıqlar xüsusi fayl şəklində toplanaraq kompromat kimi saxlanılıb və ya xaricə çıxarılıb. T.Quliyevi 2015-ci il oktyabr ayının 18-də Teymur Əliyev küçəsində yerləşən 4 mərtəbəli villasında həbs ediblər.

T.Quliyev DİN-in İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində Eldar Mahmudovun bilavasitə rəhbərliyi altında işləyib və burada onların "iş birliyinin" əsası qoyulub.

Eldar Mahmudov milli təhlükəsizlik naziri təyin olunandan sonra T.Quliyevi də MTN-ə gətirib. Əvvəl MTN-də təchizat şöbəsinin rəisi postunda işləyən T.Quliyev hələ də bilinməyən "xidmətlərinə görə" tezliklə daha yüksək posta - MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsinə təyinat alıb. 2012-ci ilin mart ayında ölkə başçısının sərəncamı ilə general-mayor rütbəsi alan T.Quliyev hüquq-mühafizə sistemində ən gənc generallardan biri idi.

Sübahir Qurbanov 1980-ci ilin dekabrından Daxili İşlər Nazirliyində zabit rütbəsində bir sıra vəzifələrdə işləyib, 2004-cü ilin avqust ayında keçmiş Milli Təhlükəsizlik Nazirliyinə həqiqi hərbi xidmətə qəbul edilib. Keçmiş MTN-də şöbə rəisi vəzifəsindən, sonuncu iş yeri olan - Transmilli Mütəşəkkili Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi olub.

S.Qurbanova qarşı Cinayət Məcəlləsinin 9 maddəsi ilə cinayət işi açılıb. O, Cinayət Məcəlləsinin 145.3-cü (Qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 182.3.1-ci (Hədə-qorxu ilə tələb etmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə), 182.3.2-ci (Hədə-qorxu ilə tələb etmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə, külli miqdarda əmlak əldə etmək məqsədilə törədildikdə, eləcə də rüşvət alma, və digər maddələrlə ittiham olunurdu.

Qeyd edək ki, ilkin məhkəmə hökmünə əsasən, hər iki generalın hərbi rütbələrinin alınması barədə prezidentə təqdimat göndərilməsi haqda qərar qəbul edilib.

Həmçinin generallar və digərlərinin üzərinə həbs qoyulmuş mülklərinin bir qismi müsadirə olunub, bəzilərinin üzərindən həbs götürülüb.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

# Azərbaycan hərbçilərinin sirrini yayan agent tutuldu

## Hasanzada Bahramın hansı ölkə vətəndaşı olması və hansı ölkə ilə sərhəddə saxlanıldığı haqda rəsmi bilgi verilmir; bəs onu hansı cəza gözləyir?

**Xarici ölkə vətəndaşı Hasanzada Bahram Nusrat oğlunun xarici xüsusi xidmət orqanı əməkdaşlarının tapşırığı əsasında Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi zərərinə olaraq casusluq, dövlət sirrinin ələ keçirilməsi, Azərbaycan Respublikası vətəndaşlarının casusluğa cəlb edilməsi istiqamətində cinayət əməllərinə dair əldə edilən məlumatlar yoxlanılaraq təsdiqini tapıb.**

Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimai əlaqələr şöbəsindən məlumat verilib.

Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilmiş birgə əməliyyat tədbirləri nəticəsində Bahram Hasanzada dövlət sərhədini qanunsuz keçərək ölkə ərazisinə daxil olarkən saxlanılıb, DTX İstintaq baş idarəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276 (casusluq) və 318.1-ci (dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Həmçinin müəyyən edilib ki, xarici ölkə vətəndaşı Bahram Hasanzada xarici xüsusi xidmət orqanı əməkdaşlarının tapşırığı əsasında Azərbaycan silahlı qüvvələrində xidmət edən hərbi qulluqçular, ölkə ərazisində yerləşən hərbi-strateji obyektlər, hərbi texnika və silah-sursat, xarici ölkələrlə hərbi sahədə əlaqələr, eləcə də Azərbaycanın dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti ilə bağlı sair kəşfiyyat məlumatlarını toplayıb, bu məqsədlə uzunmüddətli münasibət qurduğu Azərbaycan Respublikası vətəndaşlarının maddi maraq müqabilində xarici xüsusi xidmət orqanı əməkdaşlarının



əlaqəsinə cəlb edilməsini təşkil edib.

Hazırda araşdırmalar davam edir.

Qeyd edək ki, Hasanzada Bahram Nusrat oğlunun hansı ölkə vətəndaşı olması ilə bağlı məlumat verilmir. Eləcə də onun dövlət sərhədimizin hansı ölkə ilə sərhədində saxlanıldığı haqda bilgi yoxdur.

**"Yeni Müsavat" casusluqla bağlı Cinayət Məcəlləsində nəzərdə tutulan cəzanı təqdim edir. Cinayət Məcəlləsinin 276-cı maddəsində deyilir:**

"Dövlət sirri olan məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə vermə, yaxud vermək məqsədilə oğurlama, toplama və ya saxlama, habelə xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə olaraq istifadə etmək üçün sair məlumatları vermə, vermək məqsədilə oğurlama və ya toplama, əgər casusluq əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən törədilərsə, əmlakı müsadirə olunmaqla və ya olunmamaqla yeddi ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

**318-ci maddədə isə deyilir:**

318.1. Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və ya dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda keçmə-

- iki yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

318.2. Bu məcəllənin 318.1-ci maddəsində nəzərdə tutulmuş əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, yaxud zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə törədildikdə-

- beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

# 21 cinayət "isti izlər"lə açılıb-rəsmi

**Oktyabrın 17-də daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Report"a verilən məlumata görə, oktyabrın 17-də gün ərzində 104 cinayət faktı qeydə alınıb, onların da 21-i "isti izlər"lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalan 11 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 42 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 2 nəfər, borclu şəxs qismində axtarışda olan 22 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Ölkənin avtomobil yollarında 3 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 3 nəfər ölüb, 1 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 8 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 26 nəfər saxlanılıb.

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

# Bu gün Türkiyədə SOCAR-ın "Star" zavodunun açılışıdır

## Prezident İlham Əliyevin ideya müəllifi olduğu meqa-layihə işə düşür; iki ölkə başçısı neft emalı zavodunun açılışında bir araya gələcək

**Bu gün Türkiyədə "Star" Neft Emalı Zavodunun açılış mərasimi keçirilir. Bu münasibətlə keçiriləcək mərasimdə Azərbaycan və Türkiyə prezidentlərinin də iştirak edəcəyi gözlənilir.**



Arxiv. 2011-ci il

Qeyd edək ki, zavod yüz faiz Azərbaycan kapitalı ilə inşa olunub və SOCAR-a məxsusdur. Azərbaycanın Türkiyədəki ən böyük yatırımı olan zavodun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan və Türkiyə prezidentləri tərəfindən qoyulub. Beləliklə, prezident İlham Əliyevin daha bir meqa-layihəsi bu gün işə düşür.

"STAR" Neft Emalı Zavodu Türkiyənin iqtisadi cəhətdən kifayət qədər güclü hesab olunan qərb hissəsində, İzmir şəhərinə yaxın olan Əliağa liman bölgəsində inşa edilməklə İzmir və İstanbul ərazilərində daxili bazarın tələbatını ödəməyə yönəlib. Zavodun iri neft-kimya kompleksi olan "Petkim"in yaxınlığında tikilməsi şaquli istiqamətdə inteqrasiya yaratmaqla yüksək səmərəliliyə səbəb olacaq.

Neft emalı zavodunun ümumi gücü 10 milyon ton təşkil edir. Zavodun əsas xammal tədarükçüsü kimi SOCAR çıxış edəcək. Zavodun istehsal edəcəyi təqribən 1,6 milyon ton nafta Türkiyədə neft-kimya sənayesinin xarici ölkələrdən xammal asılılığını azaldacaq, dizel və aviasiya yanacağı cari hesab defisitinin azalmasına yardım edəcək və neft-kimya sənayesi məhsulları üçün xammal rolunu oynayacaq. Burada ildə 4,7 milyon ton dizel, 1,6 milyon ton təyyarə yanacağı, 320 min ton LPG, 1,6 milyon ton nafta, 690 min ton neft koksu, 159 min ton kükürd və digər məhsullar istehsal olunacaq. Müəssisədə əsasən "Ural", "Azeri Light" və "Kərkük" neft növləri emal ediləcək.

Müəssisə artıq 2019-cu ildən etibarən tam gücü ilə fəaliyyətə başlamağı planlaşdırır. Zavodda 1100 nəfər daimi işlə təmin olunacaq.

SOCAR prezidenti Rövnəq Abdullayevin dediyinə görə, zavod istifadəyə verildikdən sonra ilk 5 il ərzində Azərbaycan iqtisadiyyatına hər il 850 milyon dollardan çox gəlir gətirəcək. Onun sözlərinə görə, növbəti 10 il ərzində isə müəssisə hər il 600 milyon dollardan çox gəlir gətirəcək.

Zavodun inşasını maliyyələşdirmək üçün SOCAR xarici maliyyələşmə konsorsiumundan 2,9 milyard dollar dəyərində kredit alıb. Bu maliyyələşmə müqaviləsi dəfələrlə dünyanın nüfuzlu mərkəzləri tərəfindən ən uğurlu belə sənəd adına layiq görülüb.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bildirir ki, indiyədək Azərbaycan Türkiyəyə 20 milyard dollara yaxın investisiya yatırıb:** "Ən çox investisiya qoyduğumuz qardaş ölkədir. "Star" zavodu çox böyük bir layihədir. Bu layihədən hər iki dövlət böyük gəlirlər əldə edəcək. Türkiyə özünün nefti olmayan bir ölkədir. Müəyyən protokollar var ki, 2023-cü ilədək onlara riayət etməlidirlər. Nefti əsasən xaricdən idxal edir, neft emalı sahəsində xeyli çatışmazlıqları var. Bu zavodun işə düşməsi bu problemlərin xeyli hissəsini həll edəcək".



### İlham Şaban: ""Star" kimi müasir tipli zavod Avropada hələ tikilməyib"

**Millət vəkilinin fikrincə, zavodun Azərbaycan üçün də əhəmiyyəti böyükdür:** "Böyük, dünya səviyyəli bir müəssisədir və tam olaraq Azərbaycana məxsusdur. Digər tərəfdən, mən həmişə demişəm ki, Türkiyəyə yatırım, elə Azərbaycanın özünə yatırım deməkdir. Bu gün (dünən- red.) Dövlət Müstəqilliyi Günümüzdür. Türkiyə isə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkədir".

**İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri, iqtisadçı ekspert Vüqar Bayramov deyir ki, "Star" Azərbaycanın xaricdə, o cümlədən Türkiyədə ən böyük sərmayə qoyuluşlarından biridir:** "Bu zavoda sərmayə Azərbaycanın ciddi iqtisadi gəlirlər əldə etməsinə gətirib çıxaracaq. Hətta lirənin ciddi dəyərsizləşməsi ehtimalında belə "Star" zavodu gəlirliliyini saxlamaq imkanındadır. Əldə olunacaq gəlirlərdə valyuta riskini qorunacaq. Zavodun işə düşməsi SOCAR-ın və Azərbaycan dövlətinin gəlirini artıracaq. Bu gəlirlərdən səmərəli istifadə olunması, onların yenidən gəlirli sahələrə yatırılması ölkəmiz üçün böyük faydalar verəcək".

**Ekspertin sözlərinə görə, Azərbaycan Türkiyəyə sərmayə qoyan ölkələr arasında 5-ci sıradadır:** "Əgər əvvəllər Türkiyə Azərbaycan üçün aparıcı investorlardan biri idisə, bu gün Azərbaycan qardaş ölkə üçün eyni rolu oynayır. Bu baxımdan, Türkiyə iqtisadiyyatına investisiya həm də iki ölkə arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Tərəflərin strateji olaraq əməkdaşlığı daha əlverişli zəmində genişləndirməsinə imkan verir. "Star" zavodunun istifadəyə verilməsi bu əməkdaşlığı daha da gücləndirəcək".

**Neft sahəsi üzrə mütəxəssis, "Neft Araşdırmaları Mərkəzi"nin rəhbəri İlham Şabanın sözlərinə görə, indiyədək Azərbaycan neft-qaz sahəsində əsasən infrastruktur layihələr həyata keçirib:** "Neft-qaz layihələrinə, Xəzərdən hasilat layihələrinə böyük xərclər çəkilib. Hasil olunan məhsulların nəqli üçün infrastrukturun yaradılmasına ehtiyac vardı. Ona görə də 700 milyon dollara Bakı-Supsa, təxminən 6 milyard dollara Bakı-Tiflis-Ceyhan, 8 milyard dollara TANAP, genişləndirilmə layihəsi ilə birlikdə 5 milyard dollara Cənubi Qafqaz Qaz Boru Kəməri inşa edildi. Azərbaycanın kənarda qeyri-infrastruktur xarakterli ən böyük investisiyası "Star" zavodu. Qiyməti 6,3 milyard dollardır. İndiyədək yalnız "Petkim"ə milyardla ifadə olunan yatırım edilmişdi, "Star" dəyərinə görə ondan üç dəfə böyükdür".

**Ekspertin sözlərinə görə, bu layihə ilə bağlı Azərbaycan cəmiyyətində bir anlaşılmaz sual var ki, niyə belə bir dünya səviyyəli zavod öz ölkəmizdə deyil, Türkiyədə inşa edildi:** "Azərbaycanın özündə belə bir zavoda ehtiyac böyükdür. 2008-ci ildə Azərbaycanda neft email zavodu da daxil olmaqla, böyük neft-kimya kompleksinin inşası ilə bağlı planlar irəri sürüldü. Amma məsələ uzandı-uzandı, axırda qərar gəldilər ki, köhnə zavodu 2021-ci ilədək modernləşdirsinlər. "Star" kimi müasir tipli zavod Avropada hələ tikilməyib. Bizdə Heydər Əliyev adına zavod 1952-ci ildə tikilib, 1981-ci ildə modernləşdirilib. Qırx ilə yaxındır ki, zavodda ciddi modernləşdirmə olmayıb. Hesab edirəm ki, Azərbaycan hökuməti vaxtında uzaqgörən olsaydı, neft email zavodu özümüzdə də inşa edilərdi. Özü də onu "Star"dan tez başa çatdırmaq olardı".

**Ekspertə görə, "Star"a qoyulan vəsaiti SOCAR uzağı 10 ilə geri qaytara biləcək:** "Düzdür, burada qiymətlərin müəyyən təsiri olacaq. Amm ən aşağı hesablamalarla bu zavoddan ildə 500 milyon dollar mənfəət götürmək mümkün olacaq - kredit resursların da qaytarmaq şərtilə. Bu baxımdan, zavoda investisiya kifayət qədər uğurlu yatırımdır".

**İ.Şaban deyir ki, zavodun inşasına 2,9 milyard dollar kredit resursları cəlb edilib. Qalan vəsaitin 40 faizi - 1 milyard 392,8 milyon dolları Dövlət Neft Fondu tərəfindən təmin edilib. Zavod işə düşdükdən sonra fond divident əldə etməyə başlayacaq:** "Bildiyiniz kimi, Bakı-Tiflis-Ceyhana da fond tərəfindən yatırım edilmişdi. Kəmər işə düşəndən sonra 2011-ci ilədək fond oradan divident əldə edirdi. Lakin 2011-ci ildən dvidentlərin SOCAR-a ödənməsi barədə qərar çıxarıldı. Əgər "Star" zavodu ilə bağlı da belə edilməzsə, Neft Fondu bu layihədən yaxşı mənfəət əldə edə biləcək. Düşünürəm ki, fondun bu kimi investisiyalardan gəlir götürməsinə imkan verilməlidir. Çünki dünyada belə fondların hamısı analoji layihələrdən gəlirlər hesabına böyük qazanclar əldə edirlər".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**





## Zakir Həsənov hərbi sərgidə

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Çex Respublikasına səfəri çərçivəsində bu ölkənin Müdafiə, Daxili İşlər, Xarici İşlər nazirlikləri, Silahlı Qüvvələrin Baş Qərargahı, NATO qərargahı, Avropa Müdafiə Agentliyi və bir sıra digər milli və beynəlxalq təşkilatların dəstəyi ilə keçirilən "Beynəlxalq Gələcək Qüvvələr Sərgisi 2018"də iştirak edir.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bu tədbir milli və qlobal təhlükəsizlik hədəflərinin təqdimi və təşviqi, eyni zamanda müdafiə və təhlükəsizlik sahələri üzrə məlumat mübadiləsi məqsədilə keçirilən beynəlxalq səviyyədə tanınmış nüfuzlu bir platformadır.

Sərgidə 60-dan çox ölkənin 1200-dək şirkəti iştirak edir. Azərbaycan nümayəndə heyəti həmin sərgidə iştirak edən xarici ölkələrin müdafiə şirkətlərinin istehsal etdiyi məhsullara tanış olaraq onların təyinatları barədə ətraflı məlumatlandırılıb.

Səfər çərçivəsində müdafiə naziri Z.Həsənov bir sıra müdafiə şirkətlərinin rəhbərliyi ilə ikitərəfli görüşlər də keçirib.

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

**Nazirlər Kabinetinin iki şöbə müdiri işdən çıxarılıb. Bu haqda baş nazir Novruz Məmmədov qərar imzalayıb. Qərara əsasən, Günəş Vəliyeva Nazirlər Kabineti Aparatının Hüquq şöbəsinin müdiri vəzifəsindən azad edilib və onun dövlət qulluğuna xitam verilib.**

# Baş nazirin işdən çıxardığı məmurlar kimdir?

## Novruz Məmmədovun işdən çıxardıqlarından biri 1994-cü ildən NK-nın Hüquq şöbəsinin müdiri olan Günəş Vəliyevadır; onların dövlət qulluğuna da xitam verilib, bəs bu, hansı hallarda mümkündür?

Baş nazirin digər qərarı ilə Nizami Bayramov Nazirlər Kabinetinin İşlər İdarəsinin Nəqliyyat xidməti şöbəsinin müdiri vəzifəsindən azad edilib.

Qərarla onun da dövlət qulluğuna xitam verilib.

"Yeni Müsavat" xəbər verir ki, Günəş Vəliyeva 1953-cü ildə Gəncə şəhərində anadan olub. İxtisasca hüquqşünasdır.

Əmək fəaliyyətinə 1976-cı ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra Elmi-tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda kiçik elmi işçi vəzifəsini icra edən kimi başlamışdır, sonra mütəxəssis, kiçik elmi işçi vəzifəsini icra edən vəzifələrində işləmişdir.

1977-1981-ci illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində baş məsləhətçi vəzifəsində işləmişdir.

1981-1993-cü illərdə Azərbaycan Respublikası Nazirlər Soveti (sonradan Kabineti) İşlər İdrəsinin hüquq şöbəsində referent, aparıcı mütəxəssis, hüquqi ekspertiza şöbəsinin böyük referenti vəzifələrində çalışmışdır.

1993-1994-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin hüquq şöbəsinin rəisi olmuşdur.

1994-cü ildən Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin (2003-cü ilin sentyabrından Aparatının) Hüquq şöbəsinin müdiri idi.



Qeyd edək ki, N.Məmmədov bu ilin aprel ayında baş nazir təyin edildikdən sonra Nazirlər Kabinetinin Aparatında şöbələrin sayı 15-dən 10-a endirilib. Kənd təsərrüfatı məsələləri şöbəsi, ekologiya məsələləri şöbəsi və regionların inkişafı məsələləri şöbəsi birləşdirilərək regionların inkişafı, kənd təsərrüfatı və ekologiya məsələləri şöbəsi yaradılıb. Kənd təsərrüfatı şöbəsinin müdiri Əli Məmmədov və regionların inkişafı söbəsinin müdiri Nizami Mustafayev pensiya yaşlarına çatmaları ilə əlaqədar öz ərizələrinə əsasən tutduqları vəzifədən azad olunublar. Ekologiya məsələləri şöbəsinin müdiri Zemfira Sairbəyzadə yeni yaradılan regionların inkişafı, kənd təsərrüfatı və ekologiya məsələləri şöbəsi müdirinin müavini təyin edilib.

Neft və kimya məsələləri şöbəsi sənaye və energetika məsələləri şöbəsinə birləşdirilib, şöbə müdiri Əsgər Aslanov şöbə müdirinin müavini təyin olunub. Beynəlxalq maliyyə təşkilatları ilə iş şöbəsi maliyyə və iqtisadiyyat məsələləri şöbəsinə birləşdirilib və şöbə müdiri Nail Fətəliyev həmin şöbənin müdir müavini vəzifəsinə təyin edilib.

Qaçqınların və məcburi köçkünlərin məsələləri şöbəsi humanitar və sosial məsələlər şöbəsinə birləşdirilib, şöbə müdiri Qurban Sadıqov həmin şöbəyə müdir müavini təyin olunub.

Günəş Vəliyevanın və Nizami Bayramovun vəzifədən niyə çıxarılması haqda dəqiq bilgi yoxdur. Onların dövlət qulluğuna xitam verilməsi NK-da yeni vəzifəyə təyin olunmayacaqlarını deməyə əsas verir.

### Dövlət qulluğuna xitam verilməsi nə deməkdir?

**Dövlət qulluğuna aşağıdakı əsaslarla xitam verilə bilər:**

dövlət qulluqçusunun öz arzusu ilə;

dövlət orqanı ləğv edildikdə;

dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə;

qanunvericiliyin tələbləri pozularaq işə qəbul edildikdə;

dövlət qulluqçusunun aldığı sertifikatın qüvvədəolma müddəti bitdikdə və dövlət qulluqçusu növbəti sertifikat ala bilmədikdə;

Dövlət qulluğundan azad edildikdə;

Azərbaycan Respublikası vətəndaşlığına xitam verildikdə;

Qanunvericilik və ya yerli özünüidarə orqanlarına seçildikdə, habelə hakim təyin edildikdə, əgər onlar həmin vəzifələrdən imtina etmədikdə;

qanunvericilikdə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar dövlət qulluqçusu əmək funksiyasını yerinə yetirə bilmədikdə;

məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;

dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə;

dövlət qulluğunda olmanın yaş həddinə çatdıqda və sair...

Dövlət qulluqçusu müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına görə öz arzusu ilə dövlət qulluğundan çıxdıqda, ona qanunvericiliyə uyğun olaraq digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ümumi qaydada hesablanmış aylıq pensiyasının 6 misli məbləğində birdəfəlik haqq verilir və bu məbləğdən vergi tutulmur.

Dövlət orqanı rəhbərinin dövlət qulluğunu davam etdirmək barədə qərarı olarsa, dövlət qulluqçusu öz arzusu ilə dövlət qulluğundan çıxmaq barədə ərizəni verdiyi gündən 1 ay ərzində dövlət qulluğunu davam etdirməlidir. Zərurət olduqda, həmin müddət dövlət orqanının rəhbəri tərəfindən əlavə olaraq 1 ay müddətinədək uzadıla bilər.

**❑ ORXAN,**
**"Yeni Müsavat"**

# Əli İnsanovun həbsinin 13-cü ili

## Ötən il sabiq nazin həbs müddəti 2023-cü ilə qədər artırılıb



**13 il əvvəl, 2005-ci il oktyabrın 19-da o dövrdə səhiyyə naziri postunu tutan Əli İnsanov həbs olunub. Dövlət çevrilişinə cəhd ittihamı ilə həbs olunan Əli İnsanova sonradan iqtisadi sahədə cinayətkarlıqla əlaqəli ittiham irəli sürülüb. O dövrdə nazirlər Əli İnsanovun, Fərhad Əliyevin həbsini Eldar Mahmudovun rəhbərlik etdiyi Milli Təhlükəsizlik Nazirliyi gerçəkləşdirmişdi. Həbslərindən sonra Əli İnsanov da, Fərhad Əliyev də saxta əsaslarla tutulduqlarını bəyan etmişdilər.**

2007-ci ilin aprel ayında məhkəmə Əli İnsanovun əmlakı müsadirə olunmaqla və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum olunması haqda hökm çıxardı. Məhkəməsində Əli İnsanov bir daha irəli sürülən ittihamlarla razılaşmadığını, onların heç birini qəbul etmədiyini bəyan edib. 2013-cü ilin martında Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) Əli İnsanovun işi üzrə qərarı açıqlayıb. Məhkəmə İnsanovun Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü (işgəncələrin qadağan olunması) və 6-cı (ədalətli məhkəmə təhqiqatı hüququ) hüquqlarının pozulduğunu təsdiq edib və ona 10 min avro təzminat ödənilməsi barədə qərar çıxarıb. Lakin Avropa Məhkəməsinin qərarı Əli İnsanovun azad edilməsi üçün yetərli olmayıb.

2016-cı il avqustun 24-də Qaradağ Rayon Prokurorluğu Əli İnsanova Cinayət Məcəlləsinin 315.2 (hakimiyyət nümayəndəsinə zor tətbiq etmə) , 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə ) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması və istifadəsi) maddələri ilə yeni ittiham elan edilib. Həmin gün sabiq nazirin təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunub.

Yeni cinayət işinin istintaqı ilə əlaqədar Əli İnsanov 13 saylı cəzaçəkmə müəssisəsindən Bakı İstintaq Təcridxanasına köçürülüb. Qaradağ Rayon Məhkəməsi 2016-cı il oktyabrın 11-də Əli İnsanov barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçib, sonradan bu müddət bir neçə dəfə uzadılıb. İttihama görə, o, 2016-cı il avqustun 23-də xidməti vəzifəsini yerinə yetirən ədliyyə mayoru Anar Məmmədova zor tətbiq edib. Bəyan olunub ki, avqustun 23-də 13 saylı cəzaçəkmə müəssisəsində rejim qaydalarına baxış tədbirləri keçirilərkən Əli İnsanovda psixotrop maddə hesab edilən həblər, cəzaçəkmə müəssisələrində qadağan olunmuş güclü təsiredici dərman vasitəsi aşkar olunub, Penitensiar Xidmətin əməkdaşları protokol tərtib edərkən Əli İnsanov onlara mane olmağa cəhd göstərərək protokolu cırıb, hakimiyyət nümayəndəsinə qarşı zor tətbiq edib və sağlamlığı üçün təhlükəli xəsarətlər yetirib.

2017-ci il aprelin 26-da hakim Rəşad Mustafayevin sədrliyi ilə Qaradağ Rayon Məhkəməsində bu ittihamlar üzrə proses yekunlaşıb. Əli İnsanov növbəti dəfə 7 il 5 gün müddətinə azadlıqdan məhrum edilib. Beləliklə, 2005-ci ildə həbsə alınmış sabiq nazirin həbsi 2023-cü ilədək uzadılıb. Əli İnsanov ittihamları qəbul etmir, bunu siyasi sifariş sayır. 72 yaşlı Əli İnsanov tibb elmləri doktorudur, 1993-2005-ci illərdə səhiyyə naziri postunu tutub.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**




# Naxçıvana 40-dan çox ölkədən pul köçürülüb

**Naxçıvan Muxtar Respublikasındakı 17 bank qurumunun hamısında təcili pul köçürmə sistemi fəaliyyət göstərir.**

2018-ci ilin yanvar-sentyabr aylarında təcili pul köçürmələri vasitəsilə dünyanın 40-dan çox ölkəsindən muxtar respublika vətəndaşlarının adına 4 milyon 865 min ABŞ dolları məbləğində pul köçürülüb və banklar vasitəsilə ödənilib.

2018-ci il oktyabrın 1-nə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 655 min manat olub ki, bunun da 5 milyon 172 min manatını milli valyutada, 1 milyon 483 min manatını isə xarici valyutada olan əmanətlər təşkil edir.(azvision.az)

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

# Krımda "ikinci ADNA" terroru - məktəblərimiz necə qorunur...

**İşğal altındakı Krımın Kerç şəhərində kollecdə partlayış baş verib. Ölənlərin sayı 20-yə çatıb. 50-yə yaxın şəxs yaralanıb. Həyatını itirənlərdən 15-i tələbə, 5-i isə kollec işçisi olub.**

Krımın Milli Antiterror Komitəsi texnikumdakı partlayışa müəyyən edilməyən partlayıcı qurğunun səbəb olduğunu açıqlayıb. Texnikumda təhsil alan tələbələrdən birinin sözlərinə görə, bir neçə partlayış olub və daha sonra atəş səsləri eşidilib.

Rusiya İstintaq Komitəsi baş verənləri terror aktı kimi dəyərləndirib. Bununla əlaqədar, üç günlük matəm elan olunub.

Krımın rəhbəri Sergey Aksenov bildirib ki, hücumun təşkilatçısı 22 yaşlı gənc kollecin dördüncü kurs tələbəsi olub. Partlayışı törətdikdən sonra gənc özünü öldürüb.

Rusiya İstintaq Komitəsi olayın terror aktı olması ilə bağlı daha əvvəl açılan cinayət işində dəyişiklik edib. Belə ki, cəsədlərə baxış zamanı onların odlu silahdan açılan atəşlə qətlə yetirildiyi məlum olub.

Qeyd edək ki, Azərbaycanda oxşar terror hadisəsi 9 il öncə baş vermişdi. 2009-cu ilin 30 aprelində Azərbaycan Dövlət Neft Akademiyasında törədilən teraktda 13 nəfər həyatını itirmiş, 10-dan çox insan yaralanmışdı. İstintaqın gəldiyi son qənaətə görə, bu hadisə Gürcüstanın Marneuli bölgəsindən olan 29 yaşlı Fərda Qədirov tərəfindən törədilmişdi. Qatil terror aktını həyata keçirəndən sonra özünü də öldürmüşdü.

Həmin hadisədən sonra Azərbaycan məktəblərində mühafizə sistemi ciddi şəkildə sürətləndirilib. Xüsusilə ali məktəblərin mühafizəsinə daha çox diqqət ayrılır. Krımdakı bu terror aktı isə Azərbaycanda təhsil müəssisələrinin necə qorunduğunu yenidən aktuallaşdırıb.

## Pərvanə İbrahimova: "BDU-da mühafizə işi kifayət qədər yüksək səviyyədə təşkil olunub"
## Günel Aslanlı: "ATU-nun yataqxanalarında da kameralar quraşdırılıb"
## Mənsur İbrahimov: "ADPU ciddi mühafizə olunur"



**Bakı Dövlət Universitetinin mətbuat xidmətinin rəhbəri Pərvanə İbrahimova "Yeni Müsavat"a dedi ki, BDU-da mühafizə işi ciddi təşkil edilir:** "Məktəbin 4 əsas darvazası var. Bunların hər biri vasitəsilə tələbələr universitetə daxil olurlar. Bildiyiniz kimi, BDU ən böyük təhsil müəssisəsidir. Bunun üçün hər darvazanın önünə 2-3 mühafizəçi cəlb olunur. Mühafizə işimizin kifayət qədər yüksək səviyyədə təşkil olunduğunu demək olar. Birinci kurs tələbələrinə tələbə biletləri verilənə qədər müəyyən problemlər yaşayırdıq. Amma bu ildən o problem də aradan qaldırıldı. Tələbələrə biletlər vaxtında təqdim olunur. Tələblərin universitetə daxil olmalarında heç bir problem yaşanmır. Amma ciddi şəkildə yoxlamalar olur. Tələbə olmayan şəxslər olduqda müvafiq qaydada nə üçün gəldiyi soruşulur, sonra bununla bağlı dekan və ya yanına gəldikləri digər şəxslərlə əlaqə saxlanılır, ondan sonra isə şəxsiyyət vəsiqəsi qeydə alınır və həmin şəxs universitetə buraxılır. Düşünürəm ki, hər hansı bir problemimiz yoxdur. 4 darvazadan əlavə hər bir korpusun birinci mərtəbəsində mühafizə xidmətinin müxtəlif sayda əməkdaşları var".

**Azərbaycan Tibb Universitetinin mətbuat xidmətinin rəhbəri Günel Aslanlı mühafizənin gücləndirildiyini qeyd etdi:** "6 tədris binamız və bu sayda da yataqxanamız, bir inzibati binamız, 4 klinikamız var. Bütün bunların hamısının mühafizəsinə xüsusi diqqət ayrılır. Kamera sistemi və şlaqbaum da mövcuddur. Klinikalarımızda da ciddi nəzarət var. Qapıların qarşısında mühafizəçilər durur. Bundan əlavə, içəridə hər şöbənin, mərtəbənin öz nəzarətçiləri var. Hətta yataqxanalarda belə kameralar quraşdırılıb".

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mənsur İbrahimov təhlükəsizlik tədbirlərini yüksək səviyyədə həyata keçirdiklərini söylədi:** "Bizim "Esko" Mühafizə Təşkilatı ilə müqaviləmiz var. İkitərəfli müqavilədir. Həmin təşkilat Daxili İşlər Nazirliyindən müvafiq lisenziya alıb. Universitet ciddi mühafizə olunur. Bakıda 4 tədris binamız var. Bu binaların hər biri ciddi mühafizə edilir. Giriş-çıxışa xüsusi nəzarət var. Giriş zamanı tələbələr biletlərini, müəllimlər də iş vəsiqələrini təqdim edirlər. Təhlükəsizliyin təmin edilməsi üçün bütün müvafiq tədbirlər görülüb. "Esko" özəl mühafizə xidməti olsa da, qeydiyyatdan keçib, tanınan bir mühafizə xidmətidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# "Exchange"lərin açılması ilin sonuna qaldı

## Vahid Əhmədov: ""Exchange"lərin açılması ilə bağlı müəyyən qaydalar var ki, razılaşdırılmalı və qəbul olunmalıdır"

**Artıq neçənci dəfədir ki, mətbuatda valyutadəyişmə məntəqələrinin açılacağı deyilir, lakin nə paytaxtda, nə də bölgələrdə "exchange"lər gözə dəymir. Son olaraq Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov mətbuata açıqlamasında problemin yoluna qoyulması istiqamətində hazırlıqlara başlanıldığını deyib.**




Bununla yanaşı, Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbuat xidmətinin rəhbəri Elşən Allahverdiyev də mətbuata açıqlamasında bildirib ki, valyutadəyişmə məntəqələrinin açılması ən yaxşı halda ilin sonuna və gələn ilin əvvəlinə baş tutacaq. MBNP sözçüsünün açıqlamasına görə, valyutadəyişmə məntəqələri ilə bağlı nəzərdə tutulan beş normativ aktdan yalnız üçü əvvəlcədən, biri isə bu yaxınlarda təsdiqlənib. Sonuncu normativ sənədlə bağlı işlər aktivləşib və hazır olan kimi lisenziyaların verilməsinə başlanacaq. Buna görə lisenziyaların verilməsi üçün hər hansı müraciətlər qəbul edilmir.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan millət vəkili Vahid Əhmədov dedi ki, bu istiqamətdə işlər sürətləndirilib: "Mən az öncə Maliyyə Bazarlarına Nəzarət Palatasının icraçı direktoru ilə danışdım. Orada müəyyən qaydalar var ki, razılaşdırılmalı və qəbul olunmalıdır. Bundan əlavə də bir neçə ümumi sənəd var. Onların razılaşdırılması istiqamətində iş aparılır. Bu proseslər yekunlaşdıqdan sonra məsələ həllini tapacaq. Prosesin nə zaman yekunlaşacağı dəqiq deyil. Çünki vergi və digər məsələlər müxtəlif nazirliklərlə razılaşdırılmalıdır".

**Deputat hazırda "exchange"lərə tələbat olduğunu da diqqətə çatdırdı:** "Bildiyiniz kimi, ölkəmizə turist axını artıb. Valyutadəyişmə məntəqələri olmadığından turistlər üçün ciddi problemə çevrilib. Bu baxımdan insanların sıx olduğu məkanlarda, iri ticarət mərkəzlərində, nəqliyyatın, gediş-gəlişin gur olduğu yerlərdə, dəmir yolu vazğalında, avtovağzalda və digər ərazilərdə "exchange"lər açılmalıdır.

**Valyutadəyişmə məntəqələrinin açılması ilə bağlı sahibkarlara qoyulan şərtlərin ağır olmasına gəlincə, V.Əhmədov bildirdi ki, hazırda bu qanunun dəyişirilməsinə ehtiyac yoxdur:** "Qanun artıq qəbul olunub, onun dəyişdirilməsinə ehtiyac yoxdur. Qeyd etdiyim texniki məsələlər həllini tapdıqdan sonra müraciətlərin qəbuluna başlanacaq.

**İqtisadçı ekspert Natiq Cəfərli isə "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, "exchange" açmaq üçün şərtlərin kifayət qədər ağır olması sahibkarların bu sahəyə marağını azaldacaq:** "Valyutadəyişmə məntəqələrinin açılması üçün həddindən artıq sərt tələblər irəli sürülüb. VDM açmaq istəyənlər təxminən 50 min manat depozit qoymalıdırlar və o pul girov kimi toxunulmaz qalmalıdır. Bundan başqa, valyutadəyişmə məntəqələrinin standartları artırılıb. O standartlara cavab verən bir ofis yaratmaq üçün ən azı 30 min manat vəsait də lazımdır. Söhbət güllələkeçirməz şüşələrdən, yanğından mühafizə olunan seyflərdən, təhlükəsizlik sistemindən, həmin məkanın qorunması üçün dövlət qurumları ilə müqavilələrin bağlanmasından gedir. Bu şərtlər iş adamlarının bu sahəyə marağını kifayət qədər azaldıb. Depozit məsələsində və digər məsələlərdə güzəştlər olmasa, valyutadəyişmə məntəqələrinin açılmasına marağın olacağını söyləyə bilmərik. Çünki kifayət qədər böyük həcmdə vəsait tələb olunur. Gəlirliliyi də o qədər yüksək deyil ki, bu qədər vəsait xərcləyib sonra onu geri qaytara bilsinlər. Yəqin ki, şərtlərdə müəyyən qədər yumşalma olacaq, yalnız bundan sonra şəhərin mərkəzində, turistlərin çox olduğu məkanlarda bəzi VDM-lərin açılması ehtimalı yarana bilər.

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

## Gürcüstanda oğurlanmış 17 yaşlı azərbaycanlı qız tapıldı

**Gürcüstanın Saqareco rayonunun Ləmbəli kəndində oktyabrın 12-də yaşadığı evdən oğurlanmış 17 yaşlı azərbaycanlı qız tapılıb.**

"Report" xəbər verir ki, bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.

Nazirlikdən bildirilib ki, beş gün davam edən axtarışlardan sonra H.M. adlı qız Marneuli rayonunun Candar kəndində aşkarlanıb. Gəncin sağlamlıq durumunda hər hansı bir problemin olmadığı qeyd olunub.

Hazırda qız psixoloqların nəzarəti altındadır.

Faktla bağlı istintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

# Hacı Qaliblə bağlı 4 maddə ilə cinayət işi araşdırılır

## Baş Prokurorluq sabiq deputatın bağladığı yolun açılması üçün Bakı merinə məktub yazdı

**Baş Prokurorluq Hacı Qalib Salahzadənin qanunsuz olaraq bağladığı yolun açılması üçün Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova məktub ünvanlayıb. Məktubda Sabunçu rayonu, Bilgəh qəsəbəsi, Aslan Salahzadə küçəsi döngə 21, ev 2, ev 1 ünvanlarına və dəniz çimərliyinə gedən yolun açılmasının təmin edilməsi haqda məktub yazıb. Məktubun yazılmasına səbəb Bilgəh qəsəbə sakinləri Seymur Quliyev, Nurid Əliyev və 35 vətəndaşın imzası ilə Baş Prokurorluğa ünvanladıqları müraciətdir. Müraciətdə deyilir ki, sabiq deputat Qalib Salahzadə yolu kəsərək dəmir darvaza qoydurub və şlaqbaum quraşdırıb. Yola maneələr qoyub. Vətəndaşlar xahiş ediblər ki, həmin maneələrin götürülməsi üçün əməli tədbirlər görülsün. Məktub 1 həftə əvvəl göndərilsə də, Qalib Salahzadənin bağladığı yol hələ də açıqdır.**



Xəbər verdiyimiz kimi, Qalib Salahzadənin barəsində Daxili İşlər Nazirliyi (DİN) İstintaq İdarəsinin Ağır Cinayətlərin İstintaqı İdarəsində araşdırma aparılır. Hacı Qalib Salahzadə vətəndaş Seymur Quliyevin 3 və 2 mərtəbəli evlərinin yerlə bir olunması, evlərin talan edilməsi, evlərdən əşyaların oğurlanması, həyətdəki ağacların, su quyusunun dağıdılması işi üzrə dindirilir. Bundan başqa, sabiq deputat saxta sənədlə Bilgəh qəsəbəsində bağ torpaq sahəsi satmaqda iştirakçılıq işi üzrə də ifadə verib. Ötən sayımızda məlumat vermişdik ki, fakt üzrə Cinayət Məcəlləsinin 186-cı - əmlakı qəsdən məhv etmə və ya zədələmə və 188-ci - torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma maddələri ilə cinayət işi davam etdirilir. Redaksiyamıza daxil olan məlumatda deyilir ki, iş üzrə Cinayət Məcəlləsinin 259-cu - qanunsuz ağac kəsmə və 320-ci - rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə maddələri ilə də araşdırma aparılır. Hazırda Hacı Qalib Salahzadədən şikayətçilərin sayı 4 nəfərdir. Amma şikayətçilərin artacağı da istisna deyil.

Yada salaq ki, bu ilin aprelində şikayətçi Seymur Quliyev və Nurid Əliyevin əmlaklarının dağıdılması ilə bağlı Baş Prokurorluqda cinayət işi başlanıb. İş materialları istintaq olunmaq üçün Daxili İşlər Nazirliyi İstintaq İdarəsinə göndərilib. Seymur Quliyevin sözlərinə görə, Hacı Qalib Salahzadə iş üzrə bir neçə dəfə dindirilib və onunla üzləşdirilib. Seymur Quliyev istintaqa onun əmlakının məhz Hacı Qalib Salahzadə tərəfindən zəbt edilərək dağıdılmasını israrla bildirib, faktlar təqdim edib. 10-a yaxın şahid də Seymur Quliyevin dediklərini təsdiq ediblər. Seymur Quliyev deyir ki, Hacı Qalib Salahzadə Milli Məclisin deputatı olduğu dövrdə vətəndaş olaraq onun mülkünü zəbt etməklə Azərbaycan Konstitusiyasını saymadığını ortaya qoyub.

Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# Sabiq nazir müavini Musa Məmmədovun kürəkəni güllələndi-təfərrüat

## Yaxınlarının verdiyi məlumata görə, son on ildə Musa Məmmədov iki oğlunu itirib





**Türkiyənin İstanbul şəhərində Azərbaycan baş nazirinin keçmiş müavini Musa Məmmədovun kürəkəni, iş adamı Mustafa Erkin Karaman güllələnib. Virtualaz.org "Hüriyyet" qəzetinə istinadən xəbər verir ki, hadisə Beykoz məhəlləsində oktyabrın 17-də axşam saat 20:00 radələrində baş verib.**



M.E.Karaman lüks avtomobilində hərəkətdə ikən qəfildən naməlum şəxs və ya şəxslərin silahlı hücumuna məruz qalıb. Avtomobilə tərəf 5 dəfə atəş açılıb və o, bədəninə dəyən güllədən yaralanıb. Karaman yaralı halda hadisə yerindən uzaqlaşıb.

Hadisəni törədənlər isə ərazidən uzaqlaşa biliblər.

İş adamının yaralı halda təcili yardım avtomobilində Beykoz Dövlət Xəstəxanasına çatdırıldığı bildirilir. Burada ona ilkin tibbi yardım göstərildikdən sonra özəl xəstəxanalardan birinə aparılıb.

Mustafa Erkin Karaman Azərbaycanın keçmiş baş nazirinin müavini Musa Məmmədovun qızı Günel Məmmədova ilə 2012-ci ildə evlənib. Cütlüyün toyu Bakının məşhur şadlıq sarayı olan "Çırağan"da keçirilib.

Qeyd edək ki, Musa Məmmədov Azərbaycanda kənd təsərrüfatı naziri vəzifəsində çalışıb. Ölkənin ilk prezidenti Ayaz Mütəllimovun hakimiyyətdə olduğu dövrdə onun səlahiyyətli nümayəndəsi olub. 1992-ci ildə A.Mütəllimov tərəfindən baş nazirin müavini təyin edilib. Qarabağ müharibəsi vaxtı Ağdamda prezidentin səlahiyyətli nümayəndəsi də olub. 1991-2001-ci illərdə "Azərmeşə" İstehsalat Birliyinə rəhbərlik edib. 85 yaşlı M.Məmmədov vəzifəsindən 2017-ci ildə azad edilib. O, prezidentin fərdi təqaüdçüsü, respublikanın əməkdar aqronomu, iqtisad elmləri doktoru, Dövlət mükafatı laureatıdır.

Unikal.org-un məlumatına görə, İnam Kərimov kənd təsərrüfatı naziri vəzifəsinə təyin edildikdən sonra onun xahişi ilə təcrübəsindən yararlanmaq qərarı verib. 87 yaşlı Musa Məmmədov hazırda nazirlikdə bitkiçilik və pambıqçılıq sahəsində mütəxəssis kimi çalışır. Yaxınlarının verdiyi məlumata görə, son on ildə Musa Məmmədov iki oğlunu itirib. Bir qızı isə Türkiyədə ailəlidir. Musa Məmmədov müalicələri üçün mütəmadi olaraq Türkiyəyə gedir. Hazırkı hadisədən isə xəbəri yoxdur.

# Günəşli günlərdən biri 18 oktyabr - 27 il sonranın təəssüratı



**Xalid KAZIMLI**

**Eynilə belə bir günəşli gün idi. Adi günlərdən biri idi. Heç o vaxt da o günün təqvimdəki yeri qırmızı deyildi, indi də deyil.**

Amma 27 il öncədən başlayaraq həmin gün - 18 oktyabr Azərbaycan xalqının tarixində əlamətdar günlərdən biri, 28 May qədər əziz gün oldu.

Məhz oktyabrın 18-də Azərbaycan xalqının öndər övladları ölkəmizin Rusiya müstəmləkəsindən qopması istiqamətində həlledici hüquqi addım atdılar.

Bundan əvvəl istər SSRİ konstitusiyasında, istərsə də "Azərbaycan Sovet Sosialist Respublikası" adlanan ölkəmizin əldəqayırma konstitusiyasında "hər bir müttəfiq respublikanın SSRİ-dən ayrılmaq hüquq var" kimi bir müddəa yer alırdı.

Ancaq həmin müddəadan yararlanmaq yolunda istənilən cəhd kütləvi güllələnmə ilə, kütləvi həbslə, kütləvi sürgünlə nəticələnə bilərdi.

1991-ci il oktyabrın 18-də isə tarixi fürsət yetişmişdi, artıq müstəqillik eşqində olan heç kəsi güllələnmə, həbs gözləmirdi və bu tarixi fürsətdən yararlanmaq istəyənlərin sayı xeyli artmışdı.

Ədalətli, obyektiv olmaq gərəkdirsə, etiraf edək, 27 il öncə həmin gün heç də xalq kütləvi şəkildə azadlıq, müstəqillik heyində deyildi. Bəlkə də lap dürüst, obyektiv, qanuni referendum keçirilsə, Azərbaycan seçicisi 60-70 faiz civarında SSRİ-nin tərkibində qalmağa, daha dəqiqi, Rusiyanın ucqar əyaləti olmağa səs verərdi. Bu, 70 il boyunca xalqa kölə psixologiyasının təlqin edilməsinin nəticəsi idi.

Dövlət müstəqilliyini bizə bir qrup fədakar, intellektual, cəsur, uzaqgörən, vətənpərvər insanın avanqardlığı ilə milli azadlıq hərəkatının fəalları bəxş etdilər.

Məhz onlar önə çıxdılar, qabağa durdular, xalqın fəal kəsimi ilə birlikdə mütərəddid hissəsini də öz arxaları ilə apara bildilər.

Onlar tarixi təşəbbüsə yiyələnə bilməsələr, bu məsələnin həlli kütlənin iradəsinə qalsaydı, biz müstəqil ola bilməyəcəkdik.

Deyilə bilər (tez-tez deyilir də) ki, SSRİ dağıldı, 15 müttəfiq respublikanın hamısı avtomatik müstəqil oldu. Amma elə deyil. SSRİ öz-özünə dağılmadı, onu dağıdanlar oldu. O 15 müstəqil respublikanın ən azı yarısında SSRİ-nin dağılması, rus müstəmləkəçiliyini sona yetməsi uğrunda kəskin, qanlı-qadalı, qurbanlı mübarizə gedirdi və o respublikalardan biri də Azərbaycan idi. Ölkəmizdə gedən inqilabi proseslər 1905-1920-ci illərdə ölkəmizdə baş verən həlledici inqilabi hadisələr qədər önəmli oldu.

Azərbaycan SSRİ-nin dağılması prosesinə fəal şəkildə qoşulmasaydı, ittifaq hələ bir müddət də duruş gətirəcəkdi. SSRİ-nin onurğa sütunu 1990-cı ilin yanvarında Bakıda zədələnmişdi. Bundan əvvəl Almatı və Tiflisdə, ondan sonra isə Vilnüsdə baş verən qanlı hadisələr (xalqa atəş açılması) Moskvanı və ümumilikdə SSRİ respublikalarını 20 Yanvar qırğını qədər sarsıtmamışdı.

Əslində Azərbaycanın SSRİ-də qəlbən qopması məhz 20 Yanvardan sonra başlamışdı, oktyabrın 18-də isə bu təmayül konstitusiya aktı şəklində, hüquqi sənəd olaraq ortaya çıxdı.

...Oktyabrın 19-da günəşli bir gün idi. Kəndimizin geniş parkında oturub bu hadisəni müzakirə edirdik. Kəndin ziyalıları - müəllimlər, həkimlər, mühəndislər, eləcə də gənc cəbhəçilər bu hadisəni alqışlayırdılar, zəhmətkeşlər, əmək adamları tam bitərəf idilər, vaxtilə sovet hökumətindən barınmışlar və barınmaqda olanlar (onlara o vaxtlar partokrat deyirdilər) isə açıq-aşkar müstəqilliyə qarşı idilər.

Sonradan aydın oldu ki, məhz o zaman kəndimiz Azərbaycanın kiçik bir modeli olub. Dövlət müstəqilliyinə münasibətdə ölkənin hər tərəfində insanların yanaşması aşağı-yuxarı belə imiş.

İndinin özündə də keçmişin nostaljisi ilə yaşayanlar var. Onlar "ötən günləri qaytaraydılar" kimi olduqca yanlış bir hissə qapılıblar. Ötən günlərin acıları, iztirabları, məhrumiyyətləri unudulub deyə keçmiş bəzi adamlara şirin, neqativlərdən arınmış görünür.

Bir də heç vaxt SSRİ üzü görməsə də, SSRİ dönəmində bir saat yaşamasa da, uyduğu təbliğatın təsiri altında "şanlı sövet dövrü"ndən ötrü təşnə olan gənclər var. Onlar daha böyük aldanış içindədirlər.

Dövlət müstəqilliyi isə əvəzsiz, misilsiz, alternativi olmayan bir nemətdir. Bunun dadını on illərlə müstəqillik davası aparan, yüz minlərlə qurban verən, axırda ya müstəqil olan, ya da hələ də çarpışan xalqlardan soruşmaq lazımdır.

Üzləşdiyimiz haqsızlıq və ədalətsizliklərə, maddi sıxıntılara, uğursuzluqlara, səriştəsizliklərə görə müstəqil dövlətçilik kimi bir nemətə laf söyləmməz.

Vaxtilə müstəqilliyə qarşı olanların bir xeylisinin bu gün yüksək vəzifələrə daraşıb dövlətçilikdən ağız dolusu danışmaları, müstəqilliyin gülünü dərmələri isə bu gün ağlasığmaz görünür, amma sabah tarixin bir səhifəsi olacaq.



# Müstəqilliyin kupçası

Zamin HACI
zaminhaci@gmail.com

"Gözündə yaş olmasa, qəlbində göy qurşağı olmaz"
*(Hindu ata sözü)*

**Dünən bizdə müstəqillik günü imiş, ancaq bunu mənə gec xəbər verdilər, yaxşı qutlaya bilmədim. Hamısı paxıllıqdandır. Bəzi camaatımız istəyir müstəqilliyin yağını, qaymağını, şokoladını özü çörəyinə yaxıb yesin, biz yeməyək.**

Özü də biz dünyanın tək-tük xoşbəxt millətlərindənik ki, bizdə müstəqillik günü azı 2 dənədir. Bir dəfə mayda müstəqil olmuşuq, ikinci dəfə oktyabrda. Çünki bizim müstəqilliyimiz bir fəsilə sığışan deyildir, nəhəng tarixi hadisədir. Sözgəlişi, dünyada elə dövlətciklər vardır ki, onların nəinki 2 dənə, heç bir dənə də müstəqillik günləri yoxdur. Misal üçün, Britaniya, Fransa, Almaniya... Gülməli ölkələrdir. Müstəqillik günü yoxdur deyə əsgərlərin ölməyini, hansısa türmənin alınmasını, nə bilim, pivə içməyi bayram edirlər. Ona görə Almaniya necə ildir dağılır.

Bəli, müstəqillik çox yaxşı şeydir, həm də millətin haçansa əsarətdə olduğunu yada salır. Nə təhər deyillər, pis günün ömrü az olar. Yox, bu ayrı yazıya aid misal idi. Bu yazınınkı pislər olmasa yaxşıların qədri bilinməzdir. Bir də biz müstəqillik günümüzü avtobusların qabağına balaca bayraq taxılanda dəqiqləşdiririk. Dünən də elə idi. Doğrudur, hərdən o avtobuslar bir-birinin qarnına, nəticədə bayraqların dirəyi də zəhmətkeşlərin qarnına girir. Ancaq nə qəm? Müstəqillik yollarında insan hər əzaba qatlaşır. Həm də son illər şoferlər müstəqillik günü asta sürməyə, qəza olmamasına çalışırlar.

Builki müstəqillik günümüz həmçinin dünya markası "Fendi"nin reklam çarxında Azərbaycan mahnısının sözlərinin eşidilməsi ilə yadda qaldı. Məncə, onlar bizi bu yolla təbrik edirdilər, çünki cümlə belə idi: "Bir gün mənə rəhmin gələcək". Xalqımızın arzuları o reklamda öz əksini tapmışdır. Necə deyərlər, sən o yanındakı qəşəng qızın canı, bir nəzir ver. Ya da keçmiş siyasi şüarda deyilən kimi: "Ümid var gələcəyə, Səs versək Elçibəyə".

Hər bir özünə hörmət edən müstəqilliyin doğum şəhadətnaməsi, kupçası-filanı da olmalıdır. Bu sənədlərdə dövlətin yaranmasının elanı, ərazisinin necə sot olmağı-zad göstərilir. Lakin mən hazırda bizim müstəqilliyin kupçası sarıdan bir az narahatam. Nöşün ki, alçaq qonşularımız bunun bir yanında qanunsuz gecəqondu qayırmaqla yanaşı, bizdə olan hissədə də əcaib proseslər getməkdədir. Misal üçün, görürsən harasa sürüşdü, villalar gəldi böyrü üstdə, baş nazirin müavini çıxıb dedi ki, onların kupçası yoxdur, yiyələrinə pul verilməyəcək, hamısı qanunsuz tikilidir. Ancaq evlərin yiyəsi deyir kupçamız vardır. Kim haqlıdır, mən bilmirəm, ümid edirəm, siz də bilmək istəmirsiniz, nəyimizə lazımdır? Orda villamız olsa, narahat olardıq. Əsas odur, adamın öz canı sağ olsun, öz qazanı qaynasın, öz uşaqları yeyib-içib şıllaqlasın. Qonum-qonşu, millət-xalq cəhənnəm olsun. Millətin dərdi elə bizə qalıb?

Uzun sözün qısası, bu tip əhvalatlar çoxdur. O üzdən mən düşünürəm ki, bəlkə bizim müstəqilliyin də kupçası yoxdur. Ya da haradasa saxta düzəldiblər - bələdiyyə çıxarış veribdir. Yaxud ola bilər, kupça qanunidir, lakin AXC-Müsavat dövründəki dərəbəylikdə salıb itiriblər. Pis günlər idi, camaat gecələr gəzməyə çıxammırdı, parklarda müasir işıq dirəkləri də yox idi! Aman tanrım! Düşmənə də arzulamıram.

Sonda müstəqillik günü qutlamalarınızı şən yola vermək üçün dəyərli dostumuz Hikmət bəyin danışdığı bir lətifəni bura yazaq: "Deyir, bir gün biri Həcc ziyarətindən qayıdır, girir məhəllədəki dükana, satıcıdan borc dəftərini istəyir. Satıcı ürəyində çox sevinir, fikirləşir, yəqin kişi ziyarət münasibətilə camaatın borclarını bağlamaq istəyir. Tez dəftəri çıxarır qoyur piştaxtanın üstünə. Hacı deyir, indi orada mənim adımı tap. Satıcı bir az dilxor olur, ancaq yenə ürəyində fikirləşir ki, eybi yox, elə özünün də xeyli borcu var, onları verəcək, yenə şükür. Satıcı dəftərdə bunun adını tapıb, barmağıyla göstərir. Adam deyir: "Tapdınmı? İndi onun qabağından yaz: "Hacı".

Bayramınız mübarək olsun.



# Con Boltonun bölgəyə səfəri başlayır

## Sülhəddin Əkbər: "Artıq elə bir mərhələ gəlib çatıb ki, Azərbaycan ilk növbədə strateji seçim etməlidir"

**ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun bu gün Rusiyaya səfərə gələcəyi gözlənilir. Mümkündür ki, səfər sabahdan başlasın. Rusiyadan isə onun Cənubi Qafqazın hər üç ölkəsinə gələcəyi planlaşdırılıb. İrana qarşı ən sərt mövqeyi ilə seçilən Con Boltonun bölgəyə səfərinin bundan sonrakı proseslərə ciddi təsir edəcəyi bildirilir.**

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** "Yeni Müsavat"a bildirdi ki, artıq həm qlobal, həm də regional miqyasda geopolitik qarşıdurma həlledici mərhələyə daxil olub. Ona görə də hər bir region, xüsusən də hər bir ölkə uğrunda geopolitik mübarizə qızışıb. Bu baxımdan indiki halda Con Boltonun səfəri çox ciddi əhəmiyyət kəsb edən, çox mühüm məsələlərin müzakirəsinin keçiriləcəyi səfər olacaq: "İndiki yaranmış vəziyyətdə Cənubi Qafqazın önəmi artıb və getdikcə də artacaq. Ümumiyyətlə, Avrasiyanın üç əsas geostrateji regionu var. Biri Balkanlar, biri Qafqazlar, digəri Əfqanıstan-Tacikistan-Qaraqorum keçidi üçbucağıdır. Bu, üç region, ümumiyyətlə, strateji əhəmiyyəti yüksək olan regionlardır. Onsuz da strateji əhəmiyyətli olan Cənubi Qafqaz regionu uğrunda mübarizə geopolitik qarşıdurmanın həlledici mərhələyə daxil olması ilə daha da kəskinləşir. Con Boltonun səfəri bu mübarizənin tərkib hissəsidir. Con Boltonun səfəri bu baxımdan mühüm əhəmiyyətli səfərdir".

**S.Əkbərin sözlərinə görə, indi ABŞ-ın strateji gündəliyində iki məsələ var: Rusiya və Çin. Operativ taktiki gündəliyində isə yenə iki məsələ var: İran və Şimali Koreya. Operativ taktiki planda Şimali Koreya məsələsi artıq arxa plana keçib, İran məsələsi isə ön plana keçib. O baxımdan Con Boltonun bölgəyə səfərini iki kontekstdə dəyərləndirmək lazımdır:** "Birincisi, geopolitik qarşıdurmanın həlledici mərhələyə daxil olması kontekstində, ikincisi, İran məsələsinin operativ taktiki planda gündəliyin prioritet məsələsi olması".

**Konkret Azərbaycana gəldikdə, S.Əkbər xatırladı ki, Azərbaycan Rusiya ilə İran arasında yerləşən, hər iki dövlətlə həmsərhəd olan ölkədir. Nəzərə alsaq ki, İran məsələsi operativ taktiki planda gündəliyə gəlib, onda Azərbaycanın önəminin daha da artmış olduğunu anlamalıyıq. Azərbaycanın önəmi həm ABŞ, həm İran, həm Rusiya, həm Çin, həm Avropa İttifaqı üçün artıb:** "Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan məsələsi həm də İrandaxili amildir. Müxtəlif dəyərləndirmələr üzrə müasir İranın əhalisinin 43-45 faizi Azərbaycan türkləridir. O baxımdan Azərbaycan məsələsi təkcə Azərbaycan Respublikası məsələsi deyil. Bütöv yanaşsaq, İran məsələsi həm də Azərbaycan məsələsidir. Ona görə də Azərbaycanın önəmi ABŞ üçün xüsusilə artıb. Nəzərə alsaq ki, Gürcüstan artıq öz seçimini edib, Ermənistanda son siyasi dəyişikliklər Amerikanın regionda öz maraqlarını inkişaf etdirmək üçün əlverişli şərait yaradır. Qalır bir Azərbaycan. Sadaladığım bütün bu amillər baxımında Boltonun Azərbaycana səfəri çox mühümdür. Azərbaycanın Rusiyaya yaxınlaşması şübhəsiz Vaşinqtonda izlənilir və bunun qarşısını almaq istəyində olmaları mümkündür. Artıq elə bir mərhələ gəlib çatıb ki, Azərbaycan ilk növbədə strateji seçim etməlidir. Azərbaycan strateji seçimini etməsə, tərəflərin hər ikisinin gözündə etimad və etibarını itirə bilər. Xüsusilə tərəflər razılığa gəlməyəcəklərsə. Məsələn, tutaq ki, İran məsələsində Amerika ilə Rusiya heç olmasa bir çərçivə anlaşması əldə edə bilərsə, o zaman Azərbaycan manevrlərini müəyyən müddət də davam etdirə bilər. Yox, əgər onlar İran məsələsində heç bir razılığa gələ bilməzlərsə, o zaman artıq tərəflərdən hər biri Azərbaycanın hansı tərəfdə olmasında seçim etməsini tələb eləyəcəklər. Ona görə də Azərbaycan strateji seçimini etməli olacaq. İran məsələsində Azərbaycanın müəyyən güzəştə getməli olacağını düşünürəm. Rusiya ilə ABŞ arasında İran məsələsində anlaşma olmayacaqsa, Azərbaycan çətin vəziyyətə düşəcək".



**Rusiyalı politoloq Yevgeni Mixaylov isə "Report"a açıqlamasında deyib ki, Con Boltonun səfəri Qərbin gərginliyə təkan verən siyasətinin bir parçasıdır:** "Azərbaycan Rusiya ilə münasibətlərinə yüksək dəyər verir və ABŞ-a görə onları qurban verməz. Rusiya ilə Azərbaycan arasındakı münasibətlər getdikcə yaxşılaşır. Rusiya Dağlıq Qarabağ münaqişəsini yumşaldaraq həll etməyə çalışdığı halda, Qərbdən gələn açıqlamalar tərəfləri toqquşmalara təhrik edir".

**Rusiyalı politoloqun fikrincə, daha çox tanışlıq məqsədilə səfərə gələn C.Bolton Rusiyanın Azərbaycanla münasibətlərinə ciddi yanaşdığını görüb tərəflərə vədlər verməyə çalışacaq:** "Eyni zamanda Ermənistanın qərbyönümlü oyun oynaması ABŞ-ın idarəolunan xaos doktrinasını işə saldığını göstərir".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

**Avropa Şurası Parlament Assambleyasının oktyabrın 12-də payız sessiyası başa çatdıqdan sonra Azərbaycanla Avropa Şurası arasındakı əlaqələrin yenidən korlana biləcəyi ehtimalları yaranıb. Buna səbəb də Rasmus Vesterqaard Madzehin rəhbərliyi ilə AŞ PA-nın 25 üzvünün ölkəmiz əleyhinə qətnamə hazırlamasıdır. Qətnamədə Azərbaycanda insan hüquqlarının pozulduğu və korrupsiya hallarının olduğu bildirilir.**



# Azərbaycan-AŞ PA əlaqələri pisləşə bilər-ölkəmiz əleyhinə qətnamə

## Əliməmməd Nuriyev: "Onlar hər zaman naşı olublar"

Bu isə Azərbaycan-AŞ əlaqələrini yenidən gərginləşdirə bilər.

**Hüquqşünas Əliməmməd Nuriyev** "Yeni Müsavat"a açıqlamasında Avropa Şurasında müxtəlif ölkələrdən olan bir qrup deputatın ölkəmizə qarşı qərəzli olduqlarını qeyd etdi: "Bu qərəzin formalaşmasına öncəliklə onların bağlı olduqları maliyyə, iqtisadi və siyasi mərkəzlər təsir göstərirlər. Bəllidir ki, onlar müəyyən mərkəzlərin təsiri altında fəaliyyət göstərirlər. Onlar həm də bunun müqabilində böyük qrantlar alırlar. Müxtəlif maliyyə qruplarının təsiri altında olmaları da ehtimal edilir. Onlar Azərbaycanla münasibətlərin heç zaman yaxşılaşmasının fərqində olmayıblar. Ölkəmizdə həyata keçirilən tədbirləri anlamırlar, yaxud da anlayıb başa düşmək istəmirlər. Onlar məlumatlıdırlar ki, Azərbaycanda cəzaların humanistləşdirilməsi ilə bağlı çox mühüm addımlar atılır, verilən əfv sərəncamları ilə çoxlu sayda məhbus azadlığına qovuşur. Bu gün Azərbaycanda insan hüquqları və azadlıqları ilə bağlı ciddi problemlər yoxdur. Ayrı-ayrı şəxslərə məmurlar səviyyəsində münasibətdə müəyyən problemlər var. Bu da dünyanın hər yerində mövcuddur ki, bəzi hallarda qanunsuz qərarlar qəbul edilir. Bu baxımdan bəzi şəxslərin hüquq və azadlıqlarının pozulmasında müəyyən problemlər ola bilər. Bunun bərpası üçün də müxtəlif qurumlar, orqanlar ölkəmizdə fəaliyyət göstərirlər. Son zamanlar rəqəmsal hökumətə keçidlə bağlı ciddi qərarlar qəbul olunub, iqtisadi islahatlar dərinləşir, siyasi islahatlar davam edir, təsisatlar yenilənir. Əsas məqsəd Azərbaycan insanının vəziyyətini daha da yaxşılaşdırmaq və ona keyfiyyətli xidmət etməkdir. Korrupsiya ilə bağlı məsələdə onlar hər zaman naşı olublar. Bu qətnamə bir daha onu göstərdi. Çünki Azərbaycanda son illərdə əsas görülən işlərdən biri korrupsiyaya qarşı mübarizə olub. "ASAN Xidmət" sisteminin digər dövlət orqanlarında yaradılması korrupsiya sövdələşmələrinin qarşısını almağa xidmət etmirmi? Gömrük orqanlarında da çox böyük islahatlar həyata keçirilir. Vergi orqanlarında da görülən işlər hamıya məlumdur. Cənab prezident hər zaman deyir ki, ölkəyə beynəlxalq təcrübəni gətirmək lazımdır. Regionların inkişafı ilə bağlı da çox mühüm qərarlar qəbul olunub. Bütün bunlar xalqa xidmət deyil, nədir? Hökumətin hesabatlılıq səviyyəsi getdikcə dərinləşir. Son aylarda Korrupsiyaya Qarşı Mübarizə İdarəsi tərəfindən bir çox vəzifəli şəxslər korrupsiyaya hallarına yol verdikləri üçün həbs ediliblər, məsuliyyətə cəlb olunublar. Bəzi hakimlərin fəaliyyətinə xitam verilib. Bütün bunlar korrupsiyaya qarşı mübarizənin siyasi iradə baxımından göstəricisidir. Eyni zamanda vətəndaş cəmiyyəti ilə əlaqələr, işlər genişləndirilib. Azərbaycan prezidentinin korrupsiyaya qarşı sərgilədiyi mövqe ortadadır. Son günlərdəki çıxışlarının hər birində cənab prezident korrupsiyaya qarşı mübarizəni ən prioritet alətə çevirib. Bu proseslər davam edəcək".

**Hüquqşünas Azərbaycanda və ölkə kənarında yaşayan bəzi şəxslərin belə qətnamələrin hazırlanmasında rollarının olduğunu da söylədi:** "Azərbaycanda və ölkə kənarında yaşayan, xarici ölkələrə qaçmış bəzi şəxslər var ki, beynəlxalq qurumlara yalan məlumatlar göndərməklə məşğuldurlar. Onlarla birgə çalışırlar. Çünki qrantların birgə mənimsənilməsi prosesi baş verir. Hər zaman arzu edirlər ki, Azərbaycanda vəziyyət pisləşsin və onlar da daha çox qrant əldə etsinlər. Aparılan bu cür fəaliyyətlər cəmiyyətimiz tərəfindən birmənalı pislənilir. Onlar səviyyəsizlikdən başqa bir üsul tapa bilmirlər. Əlaltılarının uğursuz olduqlarını gördükləri zaman həmin 25 deputat səviyyəsində olanlar özləri hərəkətə keçirlər. Ölkəmizdə görülən işlər onların bazarını öldürür. Azərbaycanda iflasa uğrayan əlaltılarını yenidən ətə-qana gətirmək istəyirlər. Amma bu məsələlər alınmayacaq. Azərbaycanda görülən işlər kiminsə xoşuna gəlmək üçün edilmir. Dövlətimizin əsas məqsədlərindən biri insanlarımızın hüquq və azadlıqlarını təmin etməkdir. Bu islahatlar zamanın tələbidir. Boşluqlar var və bunun aradan qaldırılması üçün ortada görülən işlər mövcuddur. Bütün bunlar bəzi qüvvələri narahat etməyə bilməz. Həmin qrupların bir hissəsi erməni diasporasının təsiri altındadır. Onların siyahısına baxdıqda görərsiniz ki, Dağlıq Qarabağa qanunsuz səfərlər edənlər də, erməni qruplarının təsiri altında olanlar da var. Onların fəaliyyəti iflas olacaq. Azərbaycan müstəqil siyasət aparır və bu siyasət xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Biz beynəlxalq şəraiti də hər zaman nəzərə alırıq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Ermənistanla "haqq-hesab" günü yaxınlaşır - Bakı üçün yeni situasiya

## Kreml İrəvana qarşı hələ ki gözləmə mövqeyindədir, amma...; "kartlar" ayyarıma açılacaq; işğalçı ölkə iki "dalaşan fil"in - ABŞ və Rusiyanın ayaqları altında "ot"a çevrilə bilər...




**Ermənistandakı "məxməri inqilab"da ABŞ-ın məxsusi rolu olması artıq danılmaz faktdır. Düşmən ölkədə Amerikaya, bütövlükdə Qərbə loyallığı ilə seçilən, müttəfiq Rusiyaya isə gizli antipatiyası olan bir qüvvənin hakimiyyətə gəlməsində "Soros uşaqları"nın "əməyi" haqda da kifayət qədər yazılıb.**

Bunun nəticəsidir ki, nəinki yeni erməni hökumətində, hətta ordu rəhbərliyində Moskvanın bircə adamı belə qalmayıb. O sırada Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Moskvanın adamı, eyni zamanda Qarabağ klanının odioz nümayəndəsi general Movses Akopyan (həm də Xocalı hərbi canilərindəndir) rejim dəyişən kimi öz vəzifəsindən uzaqlaşdırıldı. Bu azmış kimi, Paşinyana sadiq istintaq qrupu Rusiyaya bağlı başqa bir yüksək çinli erməni generalı, "Rus NATO-su" kimi tanınan KTMT-nin baş katibi Yuri Xaçaturov haqda cinayət işi qaldırıldı, o, İrəvana çağırılaraq həbs edildi. Bir qədər sonra Rusiyanın digər sadiq adamı, Putinin dostu Robert Köçəryan həbsə salındı.

Doğrudur, Moskvanın müdaxiləsi ilə onların hər ikisi azad edildi. Yuri Xaçturov isə Moskvaya, işinin başına döndü. Ancaq cinayət işi hələ də qapadılmayıb. Bu da o anlama gəlir ki, dekabrdakı erkən parlament seçkilərindən sonra "yerini" daha da möhkəmlədəcək N.Paşinyan "Rusiyanın adamları"na, deməli, həm də Rusiyaya qarşı "ikinci cəbhə" aça bilər.

*****

Belə bir demarş şübhəsiz ki, inqilab sonrası Ermənistanda Rusiya təsirini minimuma endirməyə çalışan ABŞ-ın da strateji marağına cavab verir. O səbəbdən seçkilərdən sonra Vaşinqtonun bu prosesdə qabarıq olmasa da, öz təlimatları və məsləhətləri ilə gizli şəkildə yer alacağını söyləmək olar.

Başqa sözlə, Ermənistan uğrunda ABŞ-Rusiya geosiyasi rəqabətinin dekabr seçkilərindən sonra növbəti, daha amansız mərhələyə keçəcəyini proqnozlaşdırmaq mümkündür. "Kartlar" da böyük ehtimalla, o məqamdan etibarən açılmağa başlayacaq. Hər halda, Rusiya özünün bölgədə yeganə, legitim hərbi qalası olan Ermənistanda ABŞ-ın rahatca möhkəmlənməsini uzun müddət sakitcə seyr etməyəcək.

Beləcə, Ermənistan hazırda Rusiyanın, yoxsa ABŞ-ın regionda dominant olması baxımından faktiki surətdə indi həlledici, açar ölkəyə çevrilib. Artıq qarşıdakı böyük toqquşmanın ilkin "simptomları" var. Ermənistanın "dalaşan fillərin" ayaqları altında "ot" olma ehtimalı getdikcə ciddiləşir.

*****

Məsələn, srağagün Rusiya Xarici İşlər Nazirliyinin (XİN) sözçüsü Mariya Zaxarova ABŞ səfiri Riçard Millzi Ermənistanın daxili işinə qarışmamaqda suçlayıb. XİN sözçüsü Ermənistanda diplomatik missiyasını başa vuran amerikalı səfirin çıxışından təəssüfləndiyini bildirib. Zaxarova qeyd edib ki, diplomat sonradan sözlərinə düzəliş etməyə çalışıb, lakin artıq gec idi.

Yada salaq ki, amerikalı diplomat çıxışında bunları demişdi: **"Mən ABŞ hökumətinin və səfirliyinin Ermənistanda dəyişiklərə dəstək verdiyini düşünmək istəyirəm. Təşəkkür edirəm ki, son onilliklər ərzində korrupsiyaya qarşı mübarizə aparan səslərin, eləcə də bir qrup insanın və hökumət rəsmilərinin Ermənistanı ədalətli etmək yolunda səyləri dəstəklənib".**

Bundan əlavə, səfir "İşğal edilmiş ərazilərin müəyyən hissəsi Azərbaycana qaytarılmadan Qarabağ münaqişəsini həll etmək mümkün deyil" deyə bəyan etmişdi.

Qarabağ problemini kənara qoyaq. Əvvəla, amerikalı səfir gerçəkdən də Ermənistanın daxili işinə qarışıbsa, o zaman bu müstəsna olaraq iki ölkənin - ABŞ-ın və Ermənistanın işidir və üçüncü ölkəyə - Rusiyaya dəxli yoxdur. Amma qəribədir ki, rəsmi İrəvan Amerikaya qarşı bəyanatla çıxış etmədiyi halda, Moskva sanki onun havadarı kimi ABŞ əleyhinə açıqlama verir. Və sanki Ermənistan BMT üzvü olan suveren bir dövlət deyil, Rusiyanın quberniyasıdır. Əslində də belədir: Ermənistan vassal ölkədir. Amerika da onu bu vassallıqdan qurtarmaq istəyir. Deməli, əsl savaş hələ qabaqdadır.

*****

Bəs Kremlin Ermənistandakı növbədənkənar seçkilərlə bağlı ilkin hədəfi nədir?

**"Düşünmürəm ki, Moskva qarşıdakı seçki proseslərinə ciddi şəkildə qatılacaq. Əlbəttə ki, Rusiya istərdi ki, yeni parlamentdə Paşinyana qarşı sanballı əks güc olsun. Yəni Paşinyan mütləq çoxluğa malik olmasın".**

**"Yeni Müsavat"ın məlumatına görə, bu sözləri rusiyalı tanınmış siyasi şərhçi Vadim Dubnov 1 in.am erməni portalına müsahibəsində deyib. Politoloqun sözlərinə görə, Rusiya hələ ki qarşıdakı seçkilərə sakit yanaşır.** "Lakin Moskvanın maraqları dəyişməyib. Əvvəl nə idisə, indi də odur. Ermənistanda bütün bu baş verənlər, Ermənistan rəhbərləri ilə baş tutan görüşlər Moskvanı inandırıb ki, hələ vaxt var. Moskva üçün yaxın 2-5 ildə nə baş verəcəyi maraq kəsb edir. Bu müddət üçün də İrəvan Kremlə zəmanət verib ki, Rusiyaya qarşı loyal olacaq və kursu dəyişməyəcək", - deyə rusiyalı ekspert əlavə edib.

Lakin məsələ də ondadır ki, Qərb (ABŞ) inqilabçı Nikol Paşinyanı ona görə hakimiyyətə gətirməyib ki, Serj Sərkisyanın rusiyayönlü kursunu davam etdirsin. Bu istisnadır. Əks halda, Sərkisyan elə həmin xətti daha yaxşı, daha səmimi aparırdı. Erməni inqilabında əsas hədəf işğalçı ölkədə rus təsirlərini və "izlərini" yox eləməkdir ki, buna görə də Paşinyana xüsusi, tarixi missiya ayrılıb. Ermənistanın Azərbaycanla müharibə vəziyyətində olduğunu nəzərə alınarsa, o zaman Bakı üçün də yeni situasiyanın yaranacağı proqnoz edilə bilər...

❑ **Siyasət şöbəsi,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

# Yeni milli turizm brendi təqdim olundu

## Ölkənin turizm potensialının tanıdılmasında yeni dövr başlayır

**Ötən gün Bakıda ilk Milli Turizm Sammiti keçirilib. Bakı Konqres Mərkəzində keçirilən tədbir Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə baş tutub. İlk dəfə olaraq keçirilən sammitdə dövlət orqanları, diplomatik nümayəndəliklər, turizm sahəsinin əsas iştirakçıları, yerli və xarici şirkətlər, KİV nümayəndələri iştirak edib.**











Tədbiri giriş sözü ilə açan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev təmsil etdiyi qurum və sammitin keçirilməsinin məqsədlərindən danışıb: "Dövlət Turizm Agentliyi çox gənc qurumdur, yaradılmasından bir neçə ay keçməsinə baxmayaraq, bu müddət ərzində çox işlər görülüb. Ümumiyyətlə, turizmin inkişafı ölkənin əsas hədəflərindən biridir. Ölkənin turizm potensialının tanıdılmasında yeni dövr başlayır. Doğrudur, problemlərin fərqindəyik və bu problemlərin həlli istiqamətində işlər görürük. Yeni infrastrukturların yaradılması, mövcud olanların inkişaf etdirilməsi və yeni turizm məhsullarının yaradılması bu işlər sırasındadır.

İxtisaslı kadrların hazırlanmasına çalışırıq. Çünki ixtisaslı kadrların olması və turizm nəslinin inkişafı bizim üçün əsasdır. Bundan başqa, çalışırıq ki, turizm sahəsində dolğun və düzgün statistik göstəricilər əldə edə bilək. Bunun üçün xaricdən ekspertlər də dəvət olunub. Müasir dövr yeniliklər və innovasiyalar dövrüdür. Bunu nəzərə alaraq turizmdə müasir texnologiyaların hərtərəfli tətbiqini planlaşdırırıq".

**Fuad Nağıyev bir neçə ölkədə nümayəndəliklərinin açılacağını qeyd edib:**

"Beləliklə də turizm sahəsində daha dolğun statistik göstəricilər əldə etmək üçün çalışırıq. Yeni turizm brendimizlə xarici bazarlarda çıxış etmək hədəflərimizdən biridir. Hər kəsə məlumdur ki, xidmət səviyyəsi turizmin inkişafında ən önəmli faktorlardan biridir. Bu səbəbdən turistlərə göstərilən xidmətin səviyyəsinin artırılması, turistlərin ölkəmizdən məmnun ayrılması bu sahədə çalışan hər kəsin marağında olmalıdır. Dövlət Turizm Agentliyi tərəfindən bu istiqamətdə də addımlar atılacaq. Hər bir vətəndaşın baş verən proseslərə münasibəti də əhəmiyyət kəsb edir. Azərbaycan həmişə qonaqpərvər və tolerant olub. Buna baxmayaraq, turist axınına cəmiyyətdə olan reaksiyalar müxtəlif oldu. Buna görə də biz bütün vətəndaşlarımızı həmişə olduğu kimi qonaqpərvər və tolerant olmağa çağırırıq".

**Daha sonra Azərbaycan Turizm Bürosunun icraçı direktoru Florian Sengstşmidt çıxış edib:** "Azərbaycanı keyfiyyətli turizm brendi kimi dünyaya tanıtmaq üçün bacarıq lazımdır. Biz yeni bazarlar açmalı, onlayn tədarük şəbəkəsi yaratmalıyıq.

Hər bir ölkə özünü gözəl mənzərəsi ilə dünyaya tanıtmağa çalışır, özünün qlobal rəqabətdə fərqliliyini göstərir. Bu fərqliliyi hər kəs yarada bilir. Bizim strategiya da bu fərqliliyi inkişaf etdirməkdir. Biz turizmin inkişafı üçün bir çox hədəflər seçmişik. Bu gün onlardan ilkini - turizm brendini təqdim edirik".

**İcraçı direktor qeyd edib ki, nəzərdə tutulan strategiyasına uyğun olaraq hotellərin onlayn reytinqi qurulacaq, bələdçilərin sertifikatı olacaq. Həmçinin tarixi qoruqlarla bağlı layihələr hazırlanır:** "Tarixi qoruqlardan səmərəli istifadə ilə bağlı ilk layihə Basqal bölgəsi üzrə olacaq. Yanardağda çox gözəl sərgi mərkəzi açacağıq. Şahdağda da mövcud infrastruktur genişləndirilir. 24 saat ərzində işləyən "Qaynar xətt", informasiya texnologiyalarından istifadə bizim üçün çox vacib alətdir. Biz stimullaşdırıcı tədbirlərlə də bağlı təkliflərimizi verəcəyik".

**Çıxışdan sonra Azərbaycanın yeni milli turizm brendi, loqosu və şüarı geniş ictimaiyyətə təqdim olunub. "Take another look" başlıqlı brendi Büronun brend və marketinq üzrə direktoru Fidan Quliyeva təqdim edib. O, brendin necə yaranmasından söz açıb:** "Qarşımıza qoyduğumuz məqsədə nail olmaq üçün güclü brendə malik olmalı, Azərbaycanın bütün gözəlliklərini üzə çıxarmalıyıq. Gözəl mətbəximiz, qonaqpərvər insanlarımız var. Yeni brendi hazırlayarkən bütün bunları nəzərə aldıq.

Azərbaycan yeni kəşflər ölkəsidir. Yeni turizm loqosu olan "A" hərfi "Azərbaycan" sözünün ilk hərfi olmaqla yanaşı, öz formasına görə də brendin mahiyyətini çatdırır. Loqo daim yenilənəcək və təqdim olunacağı platformaya uyğunlaşdırıla biləcək. Bu loqo Azərbaycanın dünyada tanınmasına kömək edəcək.

Azərbaycanın yeni turizm brendinin "Yenidən fərqli baxışla bax" ("Take another look" - ing.) olan əsas şüarına uyğun olaraq diqqətlə və yenidən baxdıqda loqo barədə daha dəqiq təsəvvürə malik olmaq mümkündür".

Tədbir çərçivəsində gələcək planlar və layihələr, qlobal və regional bazarlarda aparılacaq marketinq strategiyası haqqında məlumat verilib, həmçinin Dövlət Turizm Agentliyinin və agentliyin tabeliyində olan Azərbaycan Turizm Bürosunun kollektivi təqdim edilib.

Onu da əlavə edək ki, yeni brendin dünya ictimaiyyətinə təqdimatı bu ilin noyabrında Londonda keçiriləcək "Dünya Səyahət Bazarı" (London WTM) sərgisində baş tutacaq.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**
**Fotolar Elçin ƏKBƏROVundur**

# Dövlət Strategiyasının 5 ili: media nümayəndələri üçün seminar

## Tədbirdə Təhsil Nazirliyinin, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun əməkdaşları, təhsil ekspertləri, media qurumlarının rəhbərləri iştirak ediblər





**Oktyabrın 18-də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın 5 ili çərçivəsində media nümayəndələri üçün "Təhsil işçilərinin əlavə təhsilinin təşkilində yeniliklər" mövzusunda seminar keçirilib.**

Musavat.com xəbər verir ki, seminarda Təhsil Nazirliyinin, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun əməkdaşları, təhsil ekspertləri, media qurumlarının rəhbərləri və jurnalistlər iştirak ediblər.

Tədbirdə Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktoru Vəfa Yaqublu "Təhsil işçilərinin əlavə təhsilinin təşkilində yeniliklər" mövzusunda təqdimatla çıxış edib. Direktor bildirib ki, ölkə prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində təhsil sahəsində müsbət dinamika müşahidə olunub, bir sıra əsaslı nailiyyətlər əldə edilib. Bu nailiyyətlərin əhatəliliyinin artması və davamlı xarakter alması isə təhsilin daha əlçatan, keyfiyyətli olmasına zəmin yaradır.

**İnstitut direktoru qeyd edib ki, strategiya müəllim hazırlığının təkmilləşdirilməsində və müəllim peşəsinin ictimai nüfuzunun artırılmasında da xüsusi önəm daşıyır:** "Təsadüfi deyil ki, 2018-2019-cu tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqədə 50 minə yaxın namizəd iştirak edib, 5000-dən artıq namizəd müəllim adını qazanaraq işə qəbul olunub. Ötən illərlə müqayisədə müəllim işləmək arzusunda olanların sayında 3 dəfə artım müşahidə edilib. Ali məktəblərə sonuncu qəbul imtahanında isə 500 və daha artıq bal toplayan abituriyentlər arasında 2090 nəfər müəllim peşəsini seçib".

Vəfa Yaqublu təqdimatda təhsil sistemində keyfiyyəti yüksəltmək və müəllimlərin peşəkar inkişafına dəstək olmaq məqsədilə həyata keçirilən tədbirlər, ixtisasartırma təlimlərinin ehtiyaclara uyğunluğu, əhatə etdiyi fənn sahələri və yeni ixtisasartırma proqramları barədə məlumat verilib. Direktor bildirib ki, 2018-ci ildə 2 şəhər və 32 rayonda fənlərin məzmunu üzrə 12 050 müəllimə ixtisasartırma təlimi keçirilib. Ümumilikdə isə 2015-2018-ci illərdə 29 mindən çox müəllim ixtisasartırma təlimlərinə cəlb olunub.

**Daha sonra Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor müavini Nəzakət Mehdiyevaya söz verilib. O bildirib ki, dərs dinləmələri zamanı müəyyən olunub ki, müəllimlər yeniliklərin əleyhinə deyillər:** "Sadəcə, müəllimlər yeniliklərin tətbiqi yollarını səmərəli bilmədikləri üçün onu müvafiq şəkildə həyata keçirmirlər. Belə olan halda müəllimlərin ixtisasartırmasına ehtiyac yaranır. Dövlət hesabına 2015-2018-ci illərdə ixtisasartırma təlimləri aparılır".

**Direktor müavini bildirib ki, hazırda məktəb direktorları üçün də ixtisasartırma proqramları hazırlanır və sınaqdan keçirilir:** "Proqram üzərində müəyyən düzəlişlər edildikdən sonra geniş şəkildə tətbiqinə başlanacaq. Əlavə təhsil onun bir qolu olan ixtisasartırma təhsili ali və digər təhsil müəssisələri tərəfindən həyata keçirilir. İstənilən əlavə təhsil və ixtisasartırma proqramı aktual məsələyə sərf olunmalıdır. Bu təlimlər minimum 36 akademik saatı əhatə etməlidir".

Daha sonra çıxış edən Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor müavini Namiq Nağıyev söyləyib ki, bu ilin 9 ayı ərzində 6074 müəllim yekun qiymətləndirmə imtahanlarında iştirak edib.O deyib ki, cari ilin sonunadək daha 25 182 nəfər müəllimin qiymətləndirilməsi planlaşdırılır.

Seminarda təqdim olunan mövzu üzrə müzakirələr aparılıb, KİV nümayəndələrinin sualları cavablandırılıb.

Qeyd edək ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul olunmasının 5 illiyi münasibətilə media nümayəndələri üçün seminarlar davam edəcək. Növbəti seminar Mingəçevirdəki "ASAN Peşə" Təhsil Mərkəzində olacaq.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

# Eyyub Hüseynovdan 5 min eşşəyin hara yoxa çıxması barədə sensasion iddia

**Son 3 il ərzində Azərbaycana uzunqulaq idxal edilməyib. Bu barədə modern.az-ın sorğusuna cavab olaraq, Dövlət Statistika Komitəsinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Rafael Süleymanov bildirib. R.Süleymanov hazırda mövcud olan uzunqulaqların statistikasını da açıqlayıb: "2016-cı ildə 35 816 baş, 2017-ci ildə ölkədə 34068 baş, 2018-ci ildə 30 854 baş uzunqulaq mövcud olub".**

## Azad İstehlakçılar Birliyinin sədri: "Eşşək əti Azərbaycanda müvafiq hüquqi sənədlərdə qadağan olunmur"



Qeyd edək ki, Dövlət Statistika Komitəsi 2014-cü ilin birinci yarısında Azərbaycanın idxal eşşəklərin alınmasına 98 min manat (o zamankı məzənnə ilə 125 min dollardan artıq) xərclədiyini açıqlamışdı. Maraqlıdır ki, Azərbaycana xaricdən eşşək alınıb gətirilsə də ölkədəki eşşəklərin sayında artım prosesi getmək əvəzinə 2015-ci ildən azalma başlayıb. 2015-ci ildə Azərbaycanda 40 mindən çox eşşək olub. 2016-cı ildə bu rəqəm 35,8 minə düşüb.

Azərbaycanda bir ildə eşşəklərin sayında beş min baş azalma o deməkdir ki, 5000 eşşək yoxa çıxıb. Eşşəklərin sayında bu qədər azalmanın nə ilə bağlı olduğu maraqlıdır. Əhali yoxa çıxdığı bildirilən eşşəklərin restoran və kafelərə, dönərxanalara verildiyini düşünür. Bu isə insanlarda narahatlıq yaradıb.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a bildirib ki, eşşəklərin sayında azalma onların ətinin dönərxanalarda, müxtəlif kolbasa sexlərində istifadə edilməsi ilə bağlı ola bilər. Eşşək inək, dana və qoyundan dəfələrlə ucuz olduğundan işbazların eşşəkləri yığaraq qeyd olunan istehlak müəssisələrinə satdıqları barədə indiyə qədər dəfələrlə məlumatlar yayılıb. Azərbaycanda yoxa çıxan 5 min eşşəyin ətinin dönərxanalara verildiyi istisna deyil. Ətin bir hissəsinin isə mal ətinin arasında əhaliyə satılması istisna deyil: "Eşşək əslində normal heyvandır, sadəcə, əti Azərbaycanda yeyilmir, Azərbaycan xalqı üçün ənənəvi deyil. Almaniyada Reyn çayının sol sahilində uzunqulaq heykəli ucaldılıb. Berlin şəhərinin tikilməsində uzunqulağın rolu bu şəkildə qiymətləndirilir. Azərbaycanda uzunqulağa nədənsə mənfi münasibət var. Eşşək əti Azərbaycanda müvafiq hüquqi sənədlərdə qadağan olunmur. Lakin eşşək ətini mal əti adına istehlakçıya satmaq cinayətdir. Azərbaycanda bax bu baş verir. Bir neçə il öncə Xaçmazda meşədə çoxlu at, eşşək baş və ayağı tapılmışdı. Bu da həmin heyvanların kəsildiyi və ətinin satışa çıxarıldığı şübhələrini artırırdı. Azərbaycan xalqı, ümumiyyətlə, eşşək və at əti ilə qidalanan xalq deyil. Eşşək əti istehlak edən insanlarda təhlükəli xəstəliklərin yaranması mümkündür. Çünki eşşək əti baytarların nəzarətindən tam qıraqdadır. Hətta hansı xəstəlik daşıyıcısı və necə xəstəliklər gəzdirdiyi barədə tam nəzarətdə olmayan bir heyvandır. Ona görə də onda hansı xəstəliklərin ola biləcəyi, hansı heyvan xəstəliklərinin insana keçə bilməsi nə cəmiyyətə, nə də baytarlarla məlum deyil. Heç şübhəsiz ki, eşşək əti təhlükəli heyvan xəstəliklərinin insanlara keçməsinə şərait yaradar".

**E.Hüseynov qeyd etdi ki, SSRİ vaxtı Azərbaycanda eşşək əti yeməli ətlər siyahısında imiş:** "Bizim birliyin əlində keçən əsrin 60-ci illərində hazırlanmış rəsmi sənəd var. Həmin sənəd SSRİ üzrə ətlərin növləri və qiymətləri barədədir. Sənəddə 15 respublika arasında yalnız Azərbaycanda eşşək əti yeməli ət kimi qeyd olunub. Onun qiymətləri və növləri göstərilib.

Mən əminəm ki, o vaxt bu sənədi ermənilər hazırlayıb. Bu vaxta kimi də bu sənədin təkzib olunması haqda dəfələrlə dövlət orqanları qarşısında rəsmi məsələ qaldırmışam ki, bu sənədi kimlərin hazırladığı araşdırılsın. Ümumiyyətlə, bu sənəd təkzib olunmalıdır.

Həmin sənəddə Azərbaycanda eşşək əti yeməli ət kimi işarə olunub, amma o vaxt eşşək əti tam yeyilməyən, heç yaxın durulmayan ət idi. Belə ki, 1962-ci ildə SSRİ vaxtı kim uzunqulaq saxlayırdısa, həmin şəxslərə çox böyük cərimələr olunurdu. Gecələr sovet məmurları kəndləri və qapıları gəzib kimin həyətində eşşək görürdüsə, onları cərimə edirdilər. Bununla da əhali eşşəklərdən imtina etdi. Hətta çöllərdə, dağlarda və meşələrdə vəhşi eşşək sürüləri əmələ gəldi. Mən bunu görmüşəm".

Ekspert onu da dedi ki, eşşək və at ətinin satışının qarşısının alınması və bu cür qanunsuz əməllərin ifşa olunması istiqamətində Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi vaxtaşırı ciddi addımlar atır.

Ekspertin fikrincə, qeyri-ənənəvi ət məhsullarının əhaliyə satışının qarşısının alınması üçün eyni zamanda digər müvafiq qurumlar da ciddi fəaliyyət göstərməlidirlər. Eyni zamanda din xadimləri də təbliğat işləri aparmalıdırlar. Qanunda at, eşşək, it, pişik əti qadağan deyilsə, bu o demək deyil ki, onların əti satılmalıdır və yeyilə bilər.

Rəsmi məlumata görə, uzunqulaqların çox hissəsindən, yəni 78,3 faizi regionlarımızda əsasən yük daşımalarında istifadə olunur. Eşşəklərdən daha çox Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Samux, Göygöl, Goranboy, Şəki, Astara, Lerik, Yardımlı, Cəlilabad, Xaçmaz, Sabirabad, Ağsu, Şamaxı, Şərur və Şahbuz rayonlarında istifadə edilir.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Badamdarda sürüşmə gərginliyi - torpaq "altında" kim qalacaq?

## Əzim Məsimov: "İndiyə qədər Bakının Baş planının hazırlanmamasının birinci günahkarı Hacıbala Abutalıbovdur"

**Badamdardakı sürüşmə zonasında gərgin vəziyyət davam edir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən yaradılan qərargahdan "Yeni Müsavat"a verilən məlumata görə, sürüşmə sahəsinin sol hissəsindəki çatlarda böyümə var. İstinad divarının solunda yeni qövsvari çatlar əmələ gəlib. Uçqun divarının yanındakı evin hasarında cüzi deformasiya müşahidə olunub. Nazirliyin ekspedisiya rəisi Əziz Qaralov söyləyib ki, sürüşmənin qarşı hissəsində də uçqun prosesləri gedir:**



"Ərazidəki yarımçıq tikili də demək olar ki, havadan asılı vəziyyətdə qalıb. Ümumilikdə stabil vəziyyət qalmaqdadır. Bayılda Buxta küçəsində isə ötən gün 9 nömrəli evin uçmasından sonra vəziyyət gərgin olaraq qalıb. Uçan evə qonşu olan mənzillərin divarlarında da deformasiya baş verib".

Badamdar ərazisində baş verən sürüşmə ilə əlaqədar müvafiq qurumlar tərəfindən monitorinqlər davam etdirilir. Lakin ilkin ehtimal kimi bildirilir ki, sürüşməyə səbəb ərazidəki kanalizasiya sularıdır. Çünki Badamdar qəsəbəsinin kanalizasiya sistemi yoxdur. Bu problemlə bağlı adı ən çox hallanan məmur, hazırda baş nazirin müavini olan Hacıbala Abutalıbovdur.

Abutalıbov sürüşmə günü mətbuata açıqlama verərək bildirdi ki, hadisəyə səbəb ərazidə tikilən qanunsuz evlərdir. Onun sözlərinə görə, həmin evlər sökülləcək və sahiblərinə də heç bir kompensasiya ödənilməyəcək. Sakinlər isə deyir ki, bütün sənədləri yerindədir. Sakinlər iddia etdilər ki, tikintiyə razılığı elə Abutalıbovun özü verib. Lakin Abutalıbov mətbuata açıqlamasında bu iddianı da qəti şəkildə təkzib etdi. Ardınca Bakı Şəhər İcra Hakimiyyəti də rəsmi məlumat yayaraq bildirdi ki, tikintilər 1990-cı illərə aiddir.

**Azpolitika.az saytı məsələ ilə bağlı araşdırma yazıda qeyd edib ki, bu rəsmi açıqlamaya görə tikililər 1995-2000-ci illərə aiddir. Sayt yazır ki, böyük ehtimalla Bakı Şəhər İcra Hakimiyyətinin rəsmi açıqlamasında məhz bu illər nəzərdə tutulur. Xatırladaq ki, həmin illərdə Bakının meri mərhum Rafael Allahverdiyev olub. Sayta daxil olan özəl məlumatda qeyd edilir:** "Torpaqlar sərəncamla və sərəncamsız satılıblar. Hərəsinin öz qiyməti olub. Sərəncamsız torpaq satışını əvvəlcə Sədaqət Məmmədova, sonra isə Hacıbala Abutalıbovun anasının xalası nəvələri Qafar Əhmədovla Əli Əsgərov həyata keçiriblər. Bunlardan birincisi Qanunsuz Tikililərlə mübarizə, ikincisi isə Ərazi İdarəetmə Orqanları ilə İş şöbəsinə rəhbərlik ediblər. Hər ikisi milyonların içərisində üzür..."

"Yeni Müsavat"ın reportyor qrupu ərazidən reportaj hazırlayan zaman müşahidə edib ki, qanunsuz adlandırılan evlərin əksəriyyətinin divarları yenidir, darvazaları da iri, müasir tiplidir. Ərazidə son bir neçə ildə tikilmiş binaların olduğunu müşahidə etdik.

Məlumat üçün onu da qeyd edək ki, Badamdarda hazırda torpağın 1 sotunun qiyməti 40-60 min manat arasında dəyişir.

**"Yeni Müsavat"a danışan Bakı Baş Tikinti İdarəsinin rəisi və Bakı Şəhər Soveti sədrinin 1-ci müavini vəzifəsində işləmiş Əzim Məsimov söyləyib ki, əslində 1990-cı illərdə də bu ərazidə torpaqlar satılıb:** "Həmin ərəfədə ərazidə torpağın sotunu 2 min dollara satırdılar. Sonradan qiymət 8-10 min dollara qalxdı. Lakin Hacıbala Abutalıbov Bakı şəhər icra başçısı olduğu zaman bu ərazilərə ciddi nəzarət etməli idi. Badamdarda kanalizasiya sisteminin yoxluğu, tikililərin necə gəldi tikilməsi Bakının Baş planının olmaması ilə bağlıdır. Bakının indiyə qədər Baş planının hazırlanmamasının birinci günahkarı da Hacıbala Abutalıbovdur. Baş plan olmadan hansısa işi görmək olmaz. Çünki orada hər bir detal qeyd olunur və bu detallara baxmadan böyük tikintilər aparmaq bu cür faciələrlə nəticələnə bilər. Badamdardakı bu vəziyyət dövlətimizin böyük xərcə düşməsinə səbəb olacaq. Eyni zamanda vətəndaşlar da zərər çəkirlər. Ona görə də hər bir işi vaxtında görmək lazım idi. Bundan sonra da gec deyil. Yenə də ərazidə kanalizasiya xətlərini çəkmək mümkündür. Mən bir müddət öncə müraciət etmişdim ki, şəhərin inkişafı bu cür davam edə bilməz. Çünki görürdüm ki, şəhərə son 10 il ərzinə edilən pisliklər, indiyə qədər heç zaman edilməyib. Badamdara bir neçə milyon kub kanalizasiya suyu çöküb. Bu su da müəyyən qatdan sonra gilə çatır. Nəticədə gilin üstündən də təbəqələr sürüşür. Problem də budur. Bunun üçün hansısa monitorinq aparmaq lazım deyil. Hər şey aydındır. Bu suyun qarşısını almaq üçün sadəcə olaraq, kanalizasiya xətti çəkmək lazımdır. Quyu qazmaqla iş həll olmaz".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018

# ABŞ-Türkiyə münasibətlərində yeni dönəm - sanksiyaların ləğvi gündəmdə

## Pompeonun səfəri Amerikanın Ankaranı Suriyada Vaşinqtonla əməkdaşlığa getməyə vadar etmək istədiyini göstərir...

**Oktyabrın 17-də ABŞ dövlət katibi Maykl Pompeo Türkiyəyə səfər edib. Daha əvvəl Səudiyyə Ərəbistanına gedən Pompeonun səfərinin əsas məqsədi jurnalist Camal Qaşıqçının istintaqı olub. Ancaq təbii ki, görüşdə regional məsələlər, o cümlədən ABŞ-Türkiyə münasibətləri də müzakirə olunub.**



Ankaraya gələn Pompeo burada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və eləcə də xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb. Görüşdə Qaşıqçı məsələsi ilə yanaşı ikitərəfli əlaqələrə toxunulub. Məlum olduğu kimi, hazırda Türkiyə və ABŞ arasında əsas problem iqtisadi sanksiyalar və Suriya kürdləri, daha doğrusu, PYD/YPG mövzusudur. Pompeo Türkiyədə bildirib ki, keşiş Bransonun azad edilməsindən sonra ABŞ Türkiyəyə qarşı tətbiq etdiyi sanksiyaların ləğv edilib-edilməməsi ilə bağlı yaxın vaxtlarda qərar verəcək. “Necə deyərlər, top indi Vaşinqtondadır. Ancaq belə görünür ki, Vaşinqton təmkinlidir. Dövlət katibi Pompeo sanksiyalar mövzusuna baxıla biləcəyini deyib.

ABŞ-ın Suriya üzrə xüsusi təmsilçisi Ceyms Cefri Pompeo ilə eyni vaxtda Türkiyəyə səfər edərək yerli rəsmilərlə görüşüb. Yerli mediaya müsahibəsində xüsusi təmsilçi deyib ki, Türkiyə hökuməti ABŞ prezidentinin BMT-də elan etdiyi Suriya hədəfləri ilə bağlı Vaşinqtonla həmrəydir. Onun sözlərinə görə, bu hədəflər sırasında İranın Suriyadan tamamilə çıxarılması, toqquşmaların dayanması və siyasi həll prosesinin yenidən canlandırılmasıdır. Eyni zamanda deyib ki, Ankaranın Tehran sammiti və ondan sonrakı davranışları, hərbi və siyasi sahədə atdığı addımlar atmaqla qarşısına qoyduğu hədəflərdən imtina etməyəcəyini göstərdi.

Pompeo ilə bərabər Cefrinin Ankaraya gəlməsi onu göstərir ki, ABŞ hakimiyyəti təkcə Bransonun azad edilməsini məqbul saymır. Eyni zamanda Suriya münaqişəsi ilə bağlı Ankaranın dəstəyini almaqda qərarlıdır. Çünki Ankaranın Rusiya-İran tandeminə qoşulması Amerikanın Suriyada əl-qolunu bağlayır. Bu səbəbdən də Vaşinqton üçün Suriyada Türkiyə ilə əməkdaşlıq etmək lazımdır. Ancaq hazırkı şərtlərdə Türkiyə və Vaşinqtonun maraqları üst-üstə düşmür. Türkiyənin Vaşinqtonun qaydaları ilə razılaşmasına isə əlavə təsir vasitəsi olmalıdır. Görünür, indi Vaşinqton sanksiyaların ləğv etmək qarşılığında Ankaradan Suriya məsələsində dəstək və ya əməkdaşlıq tələb edəcək. Elə Ərdoğan-Pompeo dialoqundan mətbuata sızan kiçik məlumatdan da görünür ki, görüşün əsas səbəbi Qaşıqçı göstərilsə də, danışıqların mərkəzində sanksiyalar və Suriya olub.

Cefri onu da bildirib ki, Menbicin azad edilməsi istiqamətində Ankara ilə yaxından əməkdaşlıq edirlər. Onun sözlərinə görə, bir ərəb rayonu olan Menbicdə ABŞ YPG ilə əməkdaşlıq edib. Ancaq xarici işlər naziri Çavuşoğlu və dövlət katibi Pompeo arasında 4 iyunda əldə olunmuş razılaşmaya əsasən, Menbic tədricən YPG silahlılarından təmizlənəcək və dekabrda Türkiyə ilə ABŞ silahlı qüvvələrinin birgə nəzarətinə veriləcək. C.Cefri bu razılaşmanın hələ də qüvvədə olduğunu və fəaliyyətinin bu istiqamətdə getdiyini bildirib.

**Sitat:** “Menbicdə birgə patrul həyata keçirəcəyimiz qüvvələr hazırda Türkiyədə təlim keçir. Burada məqsəd Türkiyəyə çox yaxın olduğu üçün türkləri razı salacaq bir təhlükəsizlik bölgəsinin yaradılması, bizim də razı qalacağımız, yerli xalqın təhlükəsizlikdə olacağı plan. Bu plana əsasən YPG yenidən Fəratın şərqinə çəkiləcək”.

ABŞ prezidentinin xüsusi təmsilçisi bir daha qeyd edib ki, Amerika Suriyanın ərazi bütövlüyünü dəstəkləyir. Və Suriyanın şimalında yeni bir xalq düzəltmək istəmir. Əlavə edib ki, Vaşinqtonun siyasi deyil, hərbi maraqları var.

**Xatırladaq ki, Türkiyə mətbuatının yazdığına görə, dövlət katibi Pompeo ilə görüş zamanı prezident Ərdoğan bildirib ki, Vaşinqton üçün çətinlik yaradırsa, Ankara özü Menbicdə təkbaşına antiterror əməliyyatı keçirməyə hazırdır. Sitat:** “Sizin burada çətinlikləriniz varsa, biz oranı terrorçulardan təmizləyə bilərik, həm də çox asan şəkildə”.

Xarici işlər naziri M.Çavuşoğlu isə bildirib ki, Pompeo ilə görüş zamanı Menbic mövzusunda razılaşdırılmış planın icrasında müəyyən ləngimələr olsa da, plan qüvvədədir və həyata keçirilməkdə davam edir. Hər iki tərəf, Türkiyə və ABŞ hökumətləri əldə olunmuş razılaşmanın qüvvədə qalmasında həmfikir olduqlarını bildiriblər.

**Sanksiyalar məsələsinə gəlincə, Çavuşoğlu deyib ki, embarqo qərarları ağılsızcasınadır. Və hər iki tərəf ikitərəfli əlaqələrdə bunların olmamasını vurğulayıb:** “Bu cür neqativ halların olması durumunda əlaqələr davam edə bilməz”.

Göründüyü kimi, bütün əlamətlərə görə, Türkiyəyə qarşı sanksiyaların ləğvi Bransonun azad edilməsi deyil, Suriya məsələsində anlaşmadan asılı olacaq. Vaşinqton işi məhz bu istiqamətə çəkmək istəyir. Ankara isə Menbicdə daha qərarlı ola biləcəyini, yeni əlavə şərtlərə razı olmaq istəmədiyini nümayiş etdirir. Görünən odur ki, Türkiyə və ABŞ-ın tamamilə barışması daha çox Suriyadakı əməkdaşlıqdan asılı olacaq.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**“Yeni Müsavat”**

# ABŞ neftin qiymətinə nəzarəti ələ almağa çalışır- NOPEK qanunu nədir?

## OPEK-ə qarşı qanun qəbul edilərsə, neft hasilatçıları trilyonlarla dollardan məhrum olacaq

**ABŞ prezidenti Donald Trampın OPEK-i dünya neft bazarında manipulyasiyalarda ittiham edən çıxışlarından sonra bu ölkənin parlamenti daha kəskin addıma hazırlaşır.**




Belə ki, Konqresin hüquq məsələləri komitəsi qısa adı NOPEK olan qanun layihəsini “diriltmək” qərarına gəlib. İyun ayında Tramp bəyan edib ki, Konqres neft hasilatçıları və ixracatçılarının kartel sövdələşməsinin əleyhinə yönəlmiş qanun layihəsi hazırlayıb. Bu qanun qəbul olunarsa, ABŞ məhkəmə orqanlarına OPEK üzvü olan ölkələrə qarşı kartel sövdələşməsi ehtimalı üzrə qaldırılmış iddialara baxmaq hüququ veriləcək. “Neft hasilatçı və ixracatçıları kartelinə yox”( No Oil Producing and Exporting Cartels Act) adlandırılan layihənin qəbulu məsələsi ABŞ-da 1978-ci ildən fasilələrlə bir neçə dəfə gündəmə gətirilib.

Analoji layihələrin prezidentlər Buş və Obamanın dövründə də qəbul olunmasına cəhdlər olub. İndi isə söhbət 30 ildən bəri OPEK-in ən qatı tənqidçisi olan Trampdan gedir.

Layihə qanun şəklində qəbul olunarsa nə baş verər? Amerika məhkəmələri OPEK üzvü olan və olmayan ölkələri kartel sövdələşməsində günahkar elan edərək, onların bu ölkədə olan aktivlərinin ABŞ istehlakçılarının xeyrinə müsadirəsinə dair qərar çıxara bilər. Belə ki, neftin baha qiymətinin məhz ABŞ istehlakçılarının benzini baha qiymətə almasına və maddi zərərə düşməsinə səbəb olduğu bildirilir. Bu qərarın icrasını ABŞ onunla məhkəmə sahəsində əməkdaşlıq sazişi imzalamış bütün ölkələrdən tələb edə bilər. Bu isə neft hasilatçısı olan ölkələri çox böyük itkilərlə üz-üzə qoyacaq bir addım olar. Aydın məsələdir ki, məhkəmə qərarı ilk olaraq onların ABŞ-dakı aktivlərinə şamil olunacaq. Hansı ki, ən böyük neft hasilatçısı və OPEK-də aparıcı söz sahibi olan Səudiyyə Ərəbistanının təkcə ABŞ qiymətli kağızlarında 159 milyard dolları var. Ümumilikdə isə bu ölkənin Birləşmiş Ştatlarda 1 trilyon dollara yaxın investisiyası var. Bu təhlükəni nəzərə alaraq Ər-Riyad qanun layihəsinin qəbuluna qarşı hərəkətə keçib. Bu ilin avqustunda Səudiyyənin ABŞ-dakı səfirliyi dünyaca məşhur Gibson Dunn hüquq firması ilə müqavilə imzalayıb. Dəyəri 250 min dollar olan müqaviləyə əsasən firma NOPEK-in qəbuluna qarşı fəaliyyətlər həyata keçirməlidir.

Düzdür, bir çox analitiklər qanunun tətbiqinin ilk dövründə ABŞ-ın ondan qazancının yüksək olacağını proqnozlaşdırırlar. Lakin onu da nəzərə almaq lazımdır ki, qanun qəbul olunan kimi OPEK ölkələri ABŞ-da və bu ölkənin valyutasında olan vəsaitlərini geri çəkməyə, yerini dəyişməyə başlayacaqlar. Bu isə ABŞ qiymətli kağızlar bazarı üçün ciddi itki deməkdir. Eyni zamanda hasilatçılar ABŞ-a neft satmaqdan imtina edəcəklər. Bu isə heç də ABŞ üçün yaxşı perspektiv vəd etmir.

Layihə Konqresin hər iki palatası tərəfindən dəstəklənir. Lakin onun qəbulu yalnız iqtisadi gəlir və ya itkilərlə məhdudlaşmır. Beynəlxalq ekspertlər hesab edirlər ki, layihə qəbul olunaraq imzalanması üçün prezidentə təqdim olunarsa, bu, D.Trampı çox çətin duruma sala bilər. Belə ki, İrana qarşı mübarizədə Səudiyyə Ərəbistanının dəstəyi ABŞ üçün çox böyük əhəmiyyət kəsb edir. Qanunun qəbulu isə Trampın bu dəstəkdən məhrum olması deməkdir. Bundan əlavə, Tramp neft hasilatçısı ölkələrə yüz milyardlarla dollar dəyərində silah satışı müqavilələri imzalayıb. NOPEK reallaşarsa, bu müqavilələr nəinki ləğv olunacaq, hasilatçı ölkələr ABŞ-ın əzəli rəqibi və düşməni olan Çin və Rusiyaya üz tutacaqlar.

ABŞ Enerji Məlumatları İdarəsinin məlumatına görə, OPEK dünya neft ticarətinin 60 faizinə nəzarət edir. ABŞ konqresmenləri hesab edirlər ki, layihənin qəbulu hasilatçıları bazara sanksiyalar üzündən bazardan çıxacaq İran nefti qədər məhsul çıxarmağa vadar edəcək.

Lakin məsələ burasındadır ki, Səudiyyə Ərəbistanının reallıqda bazarda əksiləcək təklifi təmin etmək imkanları çox məhduddur. Səudiyyə Ərəbistanının İran nefti çıxandan sonra bazarda çatışmayan 2 milyon barelə yaxın nefti təmin edə bilib-bilməyəcəyi ciddi sual altındadır. Baxmayaraq ki, bu ölkə bir neçə dəfə hasilatı artıraraq bazarda əksilən İran neftinin yerini doldura biləcəyini bəyan edib, beynəlxalq mərkəzlər bunu real saymırlar. Belə ki, ilkin məlumatlara görə, sentyabrda Səudiyyədə neft hasilatı gündəlik 10,53 milyon barel təşkil edib. Ölkənin yüksək vəzifəli şəxsləri bu göstəricini gündəlik 12-12,5 milyon barelə çatdırmaq imkanında olduqlarını desələr də, beynəlxalq mərkəzlər bu artımın mümkün olmayacağı qənaətindədilər. Məsələ burasındadır ki, 2016-cı ildə Səudiyyə ABŞ neftini bazarda sıxışdırmaq üçün hasilatı artırmaq xətti yürüdəndə maksimum hasilatı gündəlik 10,6 milyon barelə çatdıra bilmişdi. Qərb neft şirkətlərinin mütəxəssisləri hesab edirlər ki, bu ölkə hasilatı hətta gündəlik 11-11,5 milyon barelə belə çatdırmaq imkanında deyil. Hətta Səudiyyədəki bəzi ekspertlər də deyirlər ki, hasilatın gündəlik 11 milyon barelə çatdırılıb, uzun müddət bu həddə saxlanması çox çətin məsələdir.

Müşahidəçilərin fikrincə, qanun qəbul olunub iddia qaldırılarsa, Səudiyyənin yeganə çıxış yolu real imkanlarını ABŞ məhkəməsində sübut etməyə qalacaq.

Buna görə də OPEK üzv dövlətləri neft qiymətlərindən söhbət açmamağa çağırıb. “Reuters” xəbər verir ki, buna səbəb ABŞ tərəfindən antiinhisar xarakterli iddianın irəli sürülməsi ehtimalıdır.

OPEC təmsilçilərinə ABŞ-da təşkilata qarşı yönələn NOPEC qanun layihəsinin qəbulunu əngəlləmək üçün diplomatik lobbiçilik kanallarını araşdırmaq məsləhət görülüb.

**❑ Dünya SAKİT,**
**“Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018



# ABŞ-dan Paşinyana "ya hərb, ya sülh" çağırışı nə vəd edir?

## Vaşinqtonun işğalçı ölkədəki diplomatının İrəvanı tərk etmək ərəfəsində dediklərinə fərqli yanaşmalar; **Tofiq Zülfüqarov:** "ABŞ-ın mövqeyi həmişə bu tezislər əsasında formalaşıb"

**İşğalçı Ermənistan Düşənbə anlaşmasına zidd siyasətini sərgiləməklə faktiki olaraq Azərbaycanı savaşa çəkir. Azərbaycanın işğal altındakı ərazilərinə Ermənistandan üçüncü yolun çəkilməsi, üstəlik, Kəlbəcər rayonunda "Sidney" qəsəbəsinin salınması bu təxribatların davamıdır.**

Artıq Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistan kütləvi informasiya vasitələrində Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda "Sidney" adlı qəsəbənin salınması, həmçinin Araz çayı boyunca işğal olunmuş rayonlarla Ermənistanı birləşdirən yeni yolun çəkilməsi barədə yayılan məlumatlara münasibət bildirib. Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, danışıqlar prosesinin ruhuna, MDB-nin Düşənbə sammiti əsnasında aparılmış müzakirələrə zidd olaraq Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyətin davam etdirilməsi münaqişənin həlli istiqamətində beynəlxalq səylərə xələl gətirir: **"Bu kimi əməllər Ermənistanın sözü ilə əməlləri arasında ziddiyyətin olduğunu, bu ölkənin qeyri-konstruktivliyini və münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını növbəti dəfə nümayiş etdirir".** Açıqlamada qeyd olunub ki, Azərbaycanın işğal olunmuş ərazilərdə Ermənistan tərəfindən məskunlaşmanın aparılması, demoqrafik vəziyyətin dəyişdirilməsi və digər bu kimi qeyri-qanuni əməllərin həyata keçirilməsi beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır: **"Beynəlxalq təşkilatlar, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədrləri qarşısında Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni əməlləri məsələsi davamlı surətdə qaldırılır".**

Əslində rəsmi Bakı danışıqlara sadiqlik nümayiş etdirərək Nikol Paşinyan hakimiyyətinə sələflərinin səhvlərini təkrarlamamaqdan ötrü şans vermişdi. Onun konstruktiv olacağına dair ümidlər də ifadə olunurdu. Lakin görünən budur ki, Ermənistan rəhbərliyinin dili ilə əməli düz gəlmir. Baş nazir postundan istefa versə də, səlahiyyətlərinin icrasına davam edən N.Paşinyan isə iki həftə əvvəl dediklərini "unudub" və sakitlikdən yararlanaraq Qarabağın ilhaqı istiqamətində növbəti cəhdlərini davam etdirir.

Ermənistan hakimiyyətinin bu davranışlarının ümumilikdə bölgə üçün təhlükəli olduğunu İrəvanda dərk etməsələr də, aparıcı dünya ölkələrinin paytaxtlarında doğru-düzgün qiymətləndirirlər. İşğalçıya edilən son çağırışlar da bunun məntiqi nəticəsi sayıla bilər. Ermənistanda erkən parlament seçkilərinə iki aya yaxın vaxt qaldığı müddətdə ABŞ-ın Ermənistandakı səfiri, "məxməri inqilab"ın memarı saylan Riçard Millz "EVN Report" erməni nəşrinə müsahibəsinə diqqətçəkən fikirlər açıqlayıb.

Diplomat Qarabağ probleminin işğal altında olan müəyyən ərazilər qaytarılmadan həllinin mümkün olmadığını söyləyib ki, bu fikirlər Ermənistanın siyasi elitasını silkələyib. "Ermənistan münaqişənin həlli üçün Azərbaycanla kompromislərə getməlidir. Ümid edirəm ki, Ermənistanın daxil olduğu keçid dövrü ölkənin hansı variantlarının olduğu və nəyə hazır olduğu barədə müzakirələrə gətirib çıxaracaq"-Millz deyib. Amerika səfiri erməni ictimai rəyindəki Qarabağ yanaşmasının təhlükəli olmasına da işarə vurub: "Mən ilk dəfə ölkəyə gələndə çox təəccübləndim ki, ermənilərin böyük hissəsi işğal altındakı ərazilərin qaytarılmasına qarşı çıxır. Torpaqların qaytarılması "Madrid prinsipləri"nin əsas müddəalarındandır və istənilən nizamlama işğal olunmuş ərazilərin ən azı, müəyyən hissəsinin qaytarılmasını zəruri edəcək".

Ermənistan hakimiyyətini bir sıra hallarda Rusiyanın təzyiqlərindən belə qoruyan, onu açıq müdafiə edən ABŞ səfirinin Qarabağ açıqlaması müxtəlif yozumlara yol açıb. Hətta ABŞ-ın Qarabağ probleminin həlli ilə bağlı strategiyasının, həll planın olduğu barədə də nikbin yanaşmalar mövcuddur. Yeri gəlmişkən, bu həftə ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri Con Bolton bölgəyə, o cümlədən Ermənistana da səfər edəcək. Şübhə yoxdur ki, bu səfərdə Qarabağ məsələsi də əsas müzakirə mövzularından biri olacaq.

**Ötən həftə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent Bakıda olarkən Ermənistana BMT qətnamələrini xatırlatdı.** "Azərbaycan və Ermənistan liderlərinin Düşənbədə keçirdiyi görüş öz-özlüyündə yaxşı bir siqnaldır, yaxşı bir rəmzi məna daşıyır. Bu görüşdən sonra təmas xəttində gərginliyin səviyyəsi kifayət qədər aşağı düşüb. Biz tərəflərə müraciət edərək danışıqların bu minvalla aparılmasına və atəşkəsin pozulmasının sayının aşağı düşməsinə təkan verməyə çağırırıq. Artıq sözügedən prinsiplər, eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasının qərarları əsasında həyata keçirilən bir fəaliyyət olacaq"-diplomat deyib. ABŞ-ın Ermənistandakı səfirinin son bəyanatı Vaşinqtonun hansısa hazırlıqlarının olduğu haqda ümidlər yaradır.

"Washington Times" qəzeti də bu arada Ermənistandakı anarxiyadan yazıb. "Ermənistan küçələri Paşinyanın əlində alətə çevrilib. Qısa zamanda baş nazir bütün məhkəmə sistemini çökdürüb. Təəssüf ki, Paşinyan quldur taktikasına üstünlük verir, təhlükəsizlik xidmətindən, məhkəmələrdən siyasi qisas üçün istifadə edir. Paşinyanın etdikləri ağlasığmazdır. Dezinteqrasiya Avropa və Qafqaz üçün ağır nəticələrə gətirib çıxara bilər. Hakimiyyəti küçənin əlinə vermək, eyni zamanda dövlət institutlarını məhv etmək Ermənistanda ümumi anarxiyanın əsas reseptidir", - deyə nüfuzlu nəşr qeyd edib. Paşinyan hökumətinə mesajların perspektivləri necə olacaq, bunu demək çətindir.

**Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov ABŞ səfirinin açıqlamasında yeniliyin olmadığını bildirdi:** "ABŞ-ın mövqeyi həmişə bu tezislər əsasında formalaşıb. Hətta illik hesabatlar veriləndə də bu mövzuya yanaşmalar eyni olur. Sadəcə, ermənilərin bu reaksiyası təəccüblüdür. Bu da bir oyundur. Çünki bu mövqe onlara çoxdan bəllidir". **T.Zülfüqarov Amerika səfirinin rusiyalı həmkarının cavabına dıqqət çəkməyi vacib sayır:** "Rusiya səfirinin mövqeyi qənaətbəxş deyil. Orada işğal olunmuş ərazilər barədə heç nə deyilmir. Burada müqayisə edib, hansısa nəticələr çıxartmaq üçün əsaslar var. Azərbaycan tərəfi bu mövzuya aydınlıq gətirilməsini tələb etməlidir. Hesab edirəm ki, rəsmi şəkildə bunun izahatının verilməsi tələbi qoyulmalıdır". Eks-nazir Rusiya XİN-in Rusiya vətəndaşlarının Qarabağa qanunsuz səfərinə reaksiyasının da qaneedici olmadığını söylədi.

**Qeyd edək ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Millzin açıqlamasına sərt reaksiya verib. "ABŞ səfiri Ermənistanın daxili işinə qarışmamalıdır" deyə, Zaxarova deyib. XİN sözçüsü Ermənistanda diplomatik missiyasını başa vuran amerikalı səfirin çıxışından təəssüfləndiyini bildirib. Zaxarova qeyd edib ki, diplomat sonradan sözlərinə düzəliş etməyə çalışıb, lakin artıq gec idi. Qeyd edək ki, amerikalı səfir çıxışında bunları deyib:** "Mən ABŞ hökumətinin və səfirliyinin Ermənistanda dəyişikliklərə dəstək verdiyini düşünmək istəyirəm. Təşəkkür edirəm ki, son onilliklərdə korrupsiyaya qarşı mübarizə aparan səslərin, eləcə də bir qrup insanın və hökumət rəsmilərinin Ermənistanı ədalətli etmək yolunda səylərini dəstəklənmişdir". Bundan əlavə, xüsusi olaraq qeyd edək ki, Riçard Mills "İşğal edilmiş ərazilərin bir hissəsi Azərbaycana qaytarılmadan Dağlıq Qarabağ münaqişəsini həll etmək mümkün deyil" deyə açıq bəyan edib. O mənada mümkündür ki, Dağlıq Qarabağ prosesini öz monopoliyasında saxlamağa çalışan Rusiya XİN-in əməkdaşını qəzəbləndirən də bu fikirdir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu məsələyə daha geniş müstəvidə yanaşmağı zəruri saydı:** "ABŞ-ın Ermənistandakı səfiri Riçard Millz İrəvandakı müsahibəsində konkret dedi ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllini istəyirsə, torpaqların müəyyən hissəsini geri qaytarmalı olacaq. Maraqlıdır ki, Millz neçə ildir Ermənistanda fəaliyyət göstərir, ancaq yalnız indi həqiqəti İrəvanın üzünə deyir. Bunu da təqdir etmək lazımdır. Məsələn, biz başqa ölkələrin, hətta Azərbaycanı dost sayan ölkələrin Ermənistandakı səfirlərindən bu cür açıqlamalar eşitməmişik. Riçard Millz Ermənistandan geri qayıdır. ABŞ Ermənistana yeni səfir təyin edib. Buna baxmayaraq, Millz Ermənistan hakimiyyətinə konkret mesaj göndərdi. Mesaj bundan ibarətdir ki, Nikol Paşinyan dekabrdan sonra Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olmalıdır. Əgər Paşinyan ABŞ səfirinin dediyi kimi, Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasına razılıq verməsə, bu, bölgədə müharibə riskini artıracaq". **E.Şahinoğlunun fikrincə, Paşinyan küçədən qazandığı reytinqi hələ itirməyib, elə ona görə parlament seçkilərini tez keçirməyə çalışır:** "Korrupsiya ilə mübarizə ona xal qazandırdı. İqtisadi islahat və xarici siyasətdə isə öyünüləsi uğuru yoxdur. Tam əksinə, Rusiya ilə münasibətlərdə inamsızlıq yaranıb, Qərbdən gözlədiyi siyasi və maliyyə dəstəyini isə əldə edə bilmədi. Ermənistanda ayyarım maraqlı proseslər cərəyan edəcək. Yenilər köhnələri, o cümlədən "Qarabağ klanı"nı həm hakimiyyətdən, həm də müxalifətdən uzaqlaşdırmağa çalışacaq. Paşinyan birincini həll edib, indi ikincini reallaşdırmalıdır. Bunun Dağlıq Qarabağ münaqişəsinin həllinə nə kimi təsiri olacağı sualına isə gələn ilin əvvəlindən aydınlıq gəlməyə başlayacaq".

**Politoloq da hesab edir ki, rəsmi İrəvanın təxribatlarını davam etdirməsini unutmaq olmaz:** "İşğal altındakı ərazilərə yeni yol çəkilməsi, Kəlbəcərdə yeni qəsəbə salınması, Azərbaycan ərazilərində qanunsuz məskunlaşdırma siyasəti də bundan xəbər verir".

**Politoloq Qabil Hüseynli isə deyib ki, Armen Sərkisyanın Moskvadan qayıtdıqdan sonra dərhal Qarabağa gəlməsi və məhsul bayramında iştirak etmək adı altında qondarma qurumun rəhbəri Bako Saakyanla görüşməsi təsadüfi deyil:** "Siyasi müşahidəçilər bu görüşün Moskvanın Dağlıq Qarabağla bağlı yeni təşəbbüslərlə əlaqəsinin olacağını istisna etmirlər. Moskva ABŞ-ın, bəzi Avropa ölkələrinin - Fransanın, Almaniyanın Dağlıq Qarabağ probleminin həllində fəallaşdığını görərək və vasitəçilik təşəbbüsünün əlindən çıxacağını düşünərək yenidən bütün ipləri əlində toplamağa, Ermənistanı tamamilə özünün nəzarəti altına almağa və danışıqlar prosesində əsas söz sahibi olmağa çalışır. Belə görünür, buna müəyyən dərəcədə nail ola bilib".

Qeyd edək ki, Azərbaycan Milli Məclisinin deputatları Rusiya Dövlət Dumasının sədri və digər komitələrə etiraz müraciəti göndərib (Modern.az). Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun hazırladığı müraciət Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodinə və digər komitələrə göndərilib. Müraciəti Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əli Hüseynli və Azərbaycan-Rus icmasının sədri Mixail Zabelin imzalayıb.

Maraqlıdır, ABŞ Qarabağla bağlı Azərbaycanı nisbətən qane edən mövqe nümayiş etdirməyə başlayıb. Bu təşəbbüs nə ilə nəticələnəcək, proqnoz vermək çox çətindir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 121 (7110) 19 oktyabr 2018

**Paytaxtın ən ciddi problemlərindən biri də sərnişindaşıma xidmətində olan problemlərdir. Hər gün canımızı, övladlarımızı əmanət etdiyimiz sürücülərin ya narkoman , ya da əqli qüsurlu şəxs olması ehtimalı da istisna deyil. Üstəgəl, avtobusların texniki baxımdan standartlara cavab verməməsi, sürücülərin pul qazanmaq uğrunda yarışa girməsi də qəzaları qaçılmaz edir. Məhz onun nəticəsidir olaraq, Binə qəsəbəsinə işləyən 160 nömrəli marşrut avtobusu son günlərdə 2 dəfə ağır qəza törətdi ki, təfərrüatları hər kəsə bəllidir. Amma qəzaların qarşısı bununla da alınmayıb.**

# Avtobus qəzaları davam edir: sərnişindaşıma "bir əldə" cəmlənməli

## İlqar Hüseynli: "Sürücü və sərnişin arasındakı nağd hesablaşma tamamilə dayandırılmalı və sürücülərə normal maaş verilməlidir ki..."



Bu günlərdə Sabunçu rayonu, Bakıxanov qəsəbəsində Şəməddin Cəfərovun idarə etdiyi "Daewoo" markalı 208 saylı xətt avtobusu paytaxt sakini Vüqar Eyyubovun idarə etdiyi "MAN" markalı məişət tullantıları daşıyan yük avtomobili ilə toqquşdu və nəticədə fəhlə Eldar Bayramov iki nəqliyyat vasitəsinin arasında qalaraq hadisə yerində öldü. Araşdırma zamanı bəlli oldu ki, S. Cəfərovun nəinki sərnişin avtobusu idarə etmək üçün müvafiq kateqoriyası, ümumiyyətlə, sürücülük vəsiqəsi belə olmayıb. Bu səbəbdən sürücü Ş.Cəfərova müvafiq sənədləri olmadan sərnişin avtobusunu idarə etmək üçün verən "Magna Trans" MMC-nin şirkətin avtodəstə rəhbəri Kamil Məmmədov da saxlanılıb, onun barəsində Cinayət Məcəlləsinin 265-1.2 maddəsi ilə cinayət işi başlanıldı. Şirkət rəhbəri barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçildi.

Bəs görəsən, bu sahədəki problemlərin aradan qaldırılması üçün hansı islahatların aparılmasına ehtiyac var?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan nəqliyyat eksperti İlqar Hüseynli bildirdi ki, bu, çox ciddi bir problemdir və illərdir ki, müzakirə olunur:** "Biz də dəfələrlə öz təkliflərimizi vermişik. Ancaq çox təəssüflər ki, elə də yaxşı nəticələr əldə edə bilməmişik. Azərbaycanda, ümumiyyətlə, sərnişindaşıma ilə bağlı ciddi problemlər var. Bu problemlərin həlli ilə bağlı çox ciddi iş aparılmalıdır. Hökumətdə artıq beləməliyyə avtoparklarının yaradılması ilə bağlı fikirlər səsləndirilir. Eyni zamanda bütövlükdə sərnişindaşımanı dövlət institutlarının nəzarətinə verilməsi ilə bağlı təkliflər irəli sürülür. Bütövlükdə özəl şirkətlərin bu işlə məşğul olmasını dayandırmaq arzuolunan deyil. Sadəcə, sərnişindaşıma sahəsində fəaliyyət göstərən şirkətlər arasında rəqabəti təmin etmək lazımdır. Həm xidmət keyfiyyətinin yüksək səviyyədə olması, həm də sürücülərin peşəkarlığı və davranış normalarına riayət etməsi baxımından tələblər qoyulmalıdır".

**İ.Hüseynli onu da diqqətə çatdırdı ki, qəzalar daha çox Bakıətrafı kəndlərə işləyən marşrut avtobuslarında baş verir:** "Burada bir neçə səbəbi önə çıxartmaq olar. İlk olaraq, sürücü və sərnişin arasındakı nağd hesablaşmanı tamamilə dayandırmaq lazımdır. Bütün istiqamətlərdə hərəkət edən avtobuslarda ödənişlər kart sisteminə keçirilməlidir. Nağd ödəniş edildiyi zaman sürücülərin müəyyən qədər vəsaiti gizlətməsi mümkün haldır və onlar bunu etmək üçün nəqliyyat vasitəsini sürətlə idarə etməyə, digər avtobuslardan öncə dayanacağa yaxınlaşıb daha çox sərnişin götürməyə, həmçinin avtobusun tutumundan artıq sərnişin daşımağa çalışırlar. Bunun üçün də qaydaları pozmağa, bir-biri ilə yarışmağa məcbur olurlar. İkincisi, sərnişindaşıma xidmətlərinə sürücülərin işə götürülməsi ilə bağlı çox sərt normativ müəyyənləşdirilməlidir.

Bakı Nəqliyyat Agentliyi tərəfindən artıq belə normativlərin qəbulu nəzərdə tutulub. Bizim bu sahədəki təkliflərimiz diqqətə alınıb. Onlar attestasiya məsələsini tətbiq etmək, sürücülər üçün təlimlər keçmək istəyirlər. Mən hesab edirəm ki, bu prosedurlar öz bəhrəsini verəcək. Üçüncü və ən vacib məqam odur ki, sürücü normal əmək haqqı ilə təmin olunmalıdır. Həmçinin sürücülər növbəli şəkildə işə çıxmalıdırlar ki, ən azından günaşırı evdə qalıb dincələ bilsinlər. Çünki az qala 24 saat şəhərdə eyni istiqamət üzrə dayanmadan nəqliyyat vasitəsini idarə edən sürücünün növbəti gün yenidən xəttə çıxması doğru deyil və faciələrin yaranmasının ilkin səbəblərindən biridir. Təəssüf ki, marşrut avtobuslarını idarə edən sürücülərin əksəriyyəti növbəli deyil, gündəlik olaraq xəttə çıxırlar, bu da onların yorulmasına və qəza törətməsinə gətirib çıxarır".

**Ekspertin sözlərinə görə, bu məsələ ilə bağlı qəzaların sərtləşdirilməsi, sürücüsü qəza törədən sərnişindaşıma şirkətlərinə sərt cəzalar verilməsi, cərimələrin ödənilməsi önəmlidir:** "Yaralanan və sağlamlığını itirən sərnişinlərin müalicəsi, kompensasiyası da həmin şirkətlərin üzərinə yönəldilməlidir. Belə olan halda həmin şirkətlər də öz üzərlərində maddi məsuliyyət hiss etmiş olarlar. Hökumət bu mexanizmləri işə salmalıdır. Sürücülərin özlərini nəzarətdə saxlamaq üçün nəzarət kameralarından istifadə etmək olar. Bu da onların sükan arxasında telefonla danışmasının, siqaret çəkməsinin və sair halların qarşısını almış olar. Sürücülər üçün əxlaq və davranış kodeksi də yaradılmalı və onlar buna uyğun olaraq işə götürülməlidir. Buna uyğun olaraq da əmək haqları yetərincə olmalıdır. Əgər az əmək haqqı ilə işləyəcəklərsə, onlar daha çox pul qazanmaq üçün məcbur olacaqlar ki, hər gün xəttə çıxsınlar, bir xətdən çıxıb qalan vaxtlarında digərində işləsinlər. Maaş normal olmalıdır ki, sürücülər əlavə pul qazanmaq üçün müxtəlif yollara əl atmasınlar".

**❑ Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**



# Alternativ teleqüllə: informasiya axınında nə dəyişəcək?

## Ekspert: "Alternativ teleqüllənin yaradılması yaxşı haldır, ancaq Azərbaycanda əsas problem geniş zolaqlı internetlə bağlıdır"

**Bakıda yeni teleqüllə istifadəyə verilib. Yeni teleqüllə paytaxtın Nərimanov rayonunda, 1 saylı radiostansiyanın ərazisində yerləşir. Məlumata görə, yeni teleqüllə alternativ kimi istifadə ediləcək və profilaktika zamanı efirdə fasilə yaranmayacaq.**

Qüllənin hündürlüyü 125 metrdir. Teleqülllədəki bütün avadanlıqlar rəqəmsaldır və Almaniya, İtaliya və digər ölkələrdən gətirilib.

Alternativ teleqüllə vasitəsi əlavə olaraq həm mobil rabitə, həm də internet ötürülməsi xidmətləri də göstərilir.

Bu teleqüllə fors-major hallarında və Bakı Teleqüllə Kompleksində tələb olunan profilaktika işləri zamanı Bakı şəhəri və Abşeron yarımadasında fasiləsiz radio-televiziya yayımını və dayanıqlı mobil rabitəni təmin edir. Quraşdırılmış 2 ədəd rəqəmli verici Bakı Teleqüllə Kompleksində istismar olunan TV vericilərin alternativliyini təmin etməklə, Bakı şəhəri və Abşeron yarımadasını dövlət, ictimai və özəl TV proqramlarının yayımını həyata keçirir. Eyni zamanda Alternativ Radio Televiziya Yayım Stansiyası (RTYS) yeni quraşdırılmış 2 ədəd FM verici "Respublika" və "İctimai" radioproqramların alternativ yayımı, eləcə də mobil operatorlara məxsus avadanlıqlar vasitəsilə mobil rabitə təmin olunur.

**"Yeni Müsavat"a danışan ekspert Osman Gündüz bildirib ki, indiyə qədər alternativ teleqüllənin olmaması normal deyildi:**

"21-ci əsrdə görünməmiş hadisə idi ki, hansısa gün profilaktika olurdu, televiziyalar işləmirdi. Yəni anormal bir şey idi ki, dünyanın rəqəmsal inkişafı zamanında hansısa təmizliyə görə heç nə işləmirdi. İndiyə kimi də proses bu cür olub. Lakin insanlar hər gün hökumətin fəaliyyətindən, baş verən hadisələrdən məlumat almalıdırlar. Bu, əslində qanunvericiliyin pozulması idi. Çünki qanunvericilikdə birmənalı şəkildə yazılıb ki, vətəndaşa hökumətin fəaliyyəti ilə bağlı informasiyalar əlçatan olmalıdır. Düşünürəm ki, alternativin olması doğru və faydalı bir haldır. Həm də yəqin ki, orada yeni xidmətlər və texnologiyalar da olacaq. Ona görə də bu halı təqdir etmək olar".

**Ekspert bildirib ki, yeni teleqüllənin yüksəkdə yerləşməməsi problem yaratmır:** "Hazırda texnologiya elə inkişaf edib ki, yüksəklik elə bir əhəmiyyət daşımır. Ötürücülər güclü olandan sonra düşünmürəm ki, problem yaransın. Bəlli bir ötürücülər və ötürücü şəbəkələr mövcuddur. Ona görə də dünyada ötürücünün hündürdə yerləşməsi önəm daşımır. Telekommunikasiya peykləri də ona görə artıq dəbdən düşüb ki, yerin altı ilə bütün informasiyaları ötürmək mümkündür. Əvvəllər isə belə deyildi. Hazırda yerin altı fiber optik kabellərlə doludur. Ona görə də peyklərə ehtiyac qalmayıb. Dünyada yerüstü şəbəkələr çox inkişaf edib".

**Ekspert bildirib ki, Azərbaycanda bu şəbəkələr hələ çox geridədir:** "Düşünürəm ki, Azərbaycanda yerüstü fiber optik infrastrukturun qurulması ilə bağlı ciddi problemlər var. Baxırıq ki, hansısa hesabatda bildirirlər ki, Azərbaycanda internet istifadəçilərinin sayı əhalinin 80 faizini əhatə edir. Dünyada isə internetin keyfiyyətini xarakterizə edən parametrlər içərisində internet istifadəçilərinin sayı yoxdur. Artıq bu cür parametr nəzərə alınmır. Parametr indi belədir ki, həmin ölkədə geniş zolaqlı internet istifadəçilərinin sayı nə qədərdir. Bundan əlavə, göstərilir ki, mobil geniş zolaqlı internet istifadəçisi neçə nəfərdir. Bura həmçinin ölkəyə daxil olan internet sürətinin həcmi də aiddir. Digər parametrə isə ölkədəki internet istifadəçilərinin arasında olan orta internet sürəti daxildir. Gürcüstanda, Qazaxıstanda adambaşına düşən orta internet sürəti 10-15 meqabitdir. Bizdə isə bu, 2-3 meqabit sürətdir. Bu rəqəmlər ölkədə internetin inkişafını xarakterizə edən parametrdir. Bunlarla bağlı bizdə vəziyyət pisdir və pisliyə doğru da dəyişir. Çünki Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi fiber optik xətt çəkməyi öz üzərinə götürüb. Özəl provayderlərə bu istiqamətdə işləməyə imkan vermir. Yaxşı, onlar öz resursları ilə bu prosesi hansı müddətə bitirəcəklər? Hesablamışam ki, bu, 30 il ərzində mümkündür. Bu da doğru hal deyil. Ona görə də hesab edirəm ki, hökumət yerüstü fiber optik infrastrukturun qurulması haqqında düşünsün. Əli Abbasovun dövründə bir proqram vardı ki, "hər evə optika" adlanırdı. Bu proqramı həyata keçirmək üçün onlar hökumətdən yarım milyard manat pul istəyirdilər. Hökumət isə onlara inanmayıb, bu vəsaiti ayırmadı. Nəticədə proqram da iflasa uğradı. Ancaq həqiqətən də həmin proqrama ehtiyac vardı. Hökumətdə inam olmadığı üçün proqrama vəsait ayırmadılar. Nəticədə yuxarıda qeyd etdiyimiz parametrlər üzrə rəqəmlər aşağı düşdü. Ona görə də Azərbaycanda internetin sürəti aşağıdır. Artıq 4-5 ildir ki, ölkə üzrə geniş masştablı fiber optik infrastrukturun qurulması, hər kəndə geniş zolaqlı internetin çəkilməsi proqramı yoxdur. Nazirlik Bakı kəndlərinə çəkməyə başlayıb. Ümumilikdə isə ölkədə 5 min kənd var. Bəs bu kəndlərə kim internet çəkəcək? Bu suala heç kim cavab verə bilmir. Hesab edirəm ki, əlverişli biznes mühitinin olmadığı kəndlərə geniş zolaqlı internet çəkilməsini hökumət öz üzərinə götürməlidir. Nazirlik müvafiq qurumları, şirkətləri bir yerə yığıb, keçmiş proqramı təzələyib, sonra hökumətə bir daha təqdim etməlidir. Bununla ya hökumətdən pul almalı, ya da xaricdən kredit almalıdı. Əks halda isə Azərbaycanda internetin sürəti ilə bağlı rəqəm gələn il qonşu ölkələrlə müqayisədə xeyli aşağı olacaq".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 221 (7110) 19 oktyabr 2018




# İmanın diri qalmasına mənfi təsir edən xislət

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Məhərrəm-Səfər əyyamını yaşamaqdayıq. Dünyanın hər yerində insanlar Eşq səfərinə yola düşüblər. Milyonlarla insan Ərbəin günündə İmam Hüseyni (ə) ziyarət etmək üçün yola çıxıb. Və Kərbəla məktəbini, Aşura məktəbini dərk etmək üçün sözsüz ki, insanın özünü tanıması, əxlaqi mövzulara bilgisinin olması zəruridir.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Ötən bəhsimizdə qeyd etdik ki, insanlar hansı əqidədə, hansı vəziyyətdə olmasından asılı olmayaraq, hər kəs yaxşı bildiyi əməli etməyə can atır. Mömin şəxs isə əslində elə buna iddialıdır ki, iman gətirib və yaxşı əməl sahibi olmaq istəyir. İnancımıza görə, insanın yaxşı əməli o zaman baş tutur ki, həm əməlin özü yaxşı olsun, həm də niyyəti gözəl olsun. Niyyəti o zaman gözəl olur ki, onun imanı diri olsun. Əgər insanın imanı diri olmasa, niyyəti diri olmur.

Bəzən olur ki, insanın imanını diri hala gətirəcək bütün amillər mövcud olur, imanın bütün mövzularını da bilir, tək bilməklə də kifayətlənmir, buna uyğun yaşamaq da istəyir. Amma belə olduğu təqdirdə də belə, nəticə olmur. Əksər insanların çətinliyi bu məsələdir - tanıması, mərifəti var, istəyi, şövqi-məhəbbəti var, amma nəticə yoxdur. İman atəşinin, ruhiyyəsinin əmələ gəlməsi üçün tanıma-mərifət və istəmə-məhəbbət əsas şərtdir. Amma bunun qarşısını alan, zəiflədən, təsirini azaldan üç amil də mövcuddur.

Bu üç amil üstələyəndə və dominantlıq təşkil edəndə, iman diri olmur və nəticədə insanın yaxşı əməli meydana gəlmir. O üç amil - həvayi-nəfs, dünyaya vurğunluq və şeytanın (lən) vəsvəsəsidir.

## Dilimizin lüğət mənasında “həvayi-nəfs”

Bugünki bəhsimiz birinci amil - həvayi-nəfslə bağlıdır. “Həva” sözü kök-lüğət anlamında iki mənada işlənir. Birincisi, fiziki mənada “nəyəsə cəzb olunmaq”, ikinci mənada isə, “istəmə” anlamında işlədilir. Bunun ən ali dərəcəsi - məhəbbətdir. “Həva” sözü hətta bu müsbət yüklə də istifadə oluna bilir. Bəhsimizdə sözü gedən “həvayi-nəfs” ibarəsində daha uyğun gələn məna yükü məhz ikinci məna ilə bağlıdır. Amma, “həvayi-nəfs” sözündə cəzbolunma mənasına da diqqət etmək olar.

İnsanın meyillənməsi, yönəlməsi anlamında “həvayi-nəfs” ibarəsində cəzbolunma mənası yerindədir. “Nəfs” sözünə gəldikdə isə, təəssüflər olsun ki, bu söz bizim leksikonumuzda yetərincə tam və doğru başa düşülməyib. “Nəfs” sözünün “özüm”, “ruh”, “mən”, “şəxs” mənaları da var. Amma bunların heç biri “həvayi-nəfs” deyilərkən nəzərdə tutulmur. “Həvayi-nəfs” - “mənim istəklərim” və ya “ruhun istəkləri” mənasında deyil. Çünki, bu zaman sual oluna bilər ki, “ruhun istəkləri” nə üçün bu qədər təhlükəli olmalıdır ki?!

## Əxlaq bəhslərində “həvayi-nəfs” deyildikdə, nə nəzərdə tutulur?

Belə isə əxlaq bəhslərində “həvayi-nəfs” deyilərkən, nə nəzərdə tutulur? Əxlaq mütəxəssisləri qeyd edirlər ki, “həvayi-nəfs” deyildikdə, insanın instinktlər və qərizələr səviyyəsində olan istəklərindən söhbət gedir. Yəni hələ ağılın daxil olmadığı, ağıl işığının təsir göstərmədiyi instinktlər və qərizələr səviyyəsində olan istəklərə “həvayi-nəfs” deyilir.

İnsanın instinktlər və qərizələr səviyyəsində olan istəklərini başa düşmək üçün onları insanın fitrətindən irəli gələn istəkləri ilə müqayisə etmək çox mühümdür. Bu zaman qərizə və instinktlər səviyyəsində olan istəklərin mahiyyətini daha yaxından başa düşmək mümkündür.

## Fitrət və instinktlər səviyyəsində olan istəklər

İnsanın fitrət və instinktlər səviyyəsində olan istəklərin oxşar cəhətləri var. Bir oxşaq cəhət budur ki, hər ikisi qazanılan deyil. Misal üçün, bizim daxilimizdə həqiqət axtarmaq istəyi kimi bir hiss var. Bu, qazanılmır, məktəb görməklə, elm oxumaqla deyil. İnsanın insan olaraq daxilində həqiqət axtarmaq meyli var. Ola bilər bu istək güclü və ya zəif olsun, rəngi çox və ya az olsun - amma mütləq var. İnsanın daxilində bundan başqa fəziləti sevmək, əxlaqı sevmək, gözəlliyi sevmək, kamalı sevmək, Yaradanı axtarmaq və s. istəklər var. Eyni zamanda bütün insanlarda instinktlər və qərizələr səviyyəsində istəklər var, o cümlədən aclıq, susuzluq, cinsi müstəvidə və s. Bunlar qazanılmayıb, iradənin məhsulu deyil, insanın öz daxilində hazırdır. İnsanın daxilində həm fitri, həm də instinktiv istəkləri var. Bunları birləşdirən birinci cəhət budur ki, qazanılmayıb, insanda yarandığından bəri qoyulub.

Bunları birləşdirən ikinci xüsusiyyət isə budur ki, bu istəklər təzyiqlə aradan getmir. Zəifləyə bilər, müəyyən qədər rəngi azala bilər, amma aradan gedən deyillər. Nə fitri istəklərdən, nə də instinktlərdən irəli gələn istəkləri aradan aparmaq mümkün deyil. Sadə dillə desək, bu istəkləri söndürmək mümkün deyil. Hər hansı bir təzyiq, çətinliklər müəyyən istəkləri zəiflədə bilər, amma aradan apara bilməz. Katolik kilsə gəlir əsrlər boyu insanın cinsi instinktini aradan aparmağa səy edir, bunu nəinki sıradan çıxara bilmirlər, əksinə tam yanlış istiqamət üzrə proseslər gedir. Göründüyü kimi, nə insanın instinktlərini, nə də fitri istəklərini aradan aparmaq olmur.

Aralarında üçüncü oxşarlıq bundan ibarətdir ki, bunlar ümumidirlər və hamıda var. Bu istəklər insanların hər birində var. Ağdərilidə də, qaradərilidə də, şəhərdə yaşayanda da, kənddə yaşayanda da, təhsillidə də, təhsilsizdə də bu istəklər var. Həm fitri istəklər, həm də qərizələr səviyyəsində olan istəklər bütün insanlarda ümumidir.

## Fitri istəklərlə instinktlərdən irəli gələn istəklərin fərqləri

Eyni zamanda bunların fərqli xüsusiyyətləri də var. Qərizə və instinkt istəkləri maddi çərçivədədir, cisimlə bağlıdır. Bunun əksinə olaraq, fitri istəklər maddənin, cismin fövqündədir.

Qərizə və instinktlərlə bağlı istəkləri fitri istəklərlərdən fərqləndirən əsas cəhət budur ki, instinktlərdə bu, öz-özünə inkişaf edir. İnsan dünyaya gəlir, aclıq instinkti, susuzluq instinkti, digər instinktlərdən doğan istəkləri meydana gəlir. Bunlar hamısı təbii qaydada meydana gəlir və inkişaf edir. Heç bir irs, təhsil və s. bunun inkişafına təsir göstərmir. Amma fitri istəklər tərbiyə istəyir. Fitri istəklərin inkişafı üçün təlim-tərbiyə gərəkir. İnsanın fitri istəkləri daxilində rüşeym halında olur və onları tanıyıb təlim-tərbiyə ilə inkişaf etdirmək mümkündür.

İnsanın instinktlər və qərizələr səviyyəsində olan istəklərinin əsas xüsusiyyətlərindən biri budur ki, insan onları yerinə yetirməyə məcbur deyil. Belə deyil ki, insan acıdırsa mütləqdir ki, yesin, suzudursa vacibdir ki, su içsin və s. İnsanda iradə var və bu iradə həmin istəkləri həyata keçirib-keçirməməkdə bizə seçim ixtiyarı tanıyır.

İnstinktlər və qərizələr səviyyəsində istəkləri hansı formada həyata keçirmək olar?

Allah Təala bizim daxilimizdə böyük nemətlər qoyub. Cismimizin fiziki bədən hissəmizin təmini və davamlılığı, inkişafı üçün qərizələr və instinktlər qoyub. Fəlsəfi dillə desək, bunlar xeyirin özüdürlər. Daxilimizdə nə qoyulubsa, səbəbsiz qoyulmayıb. Bizdə nə varsa, xeyirdir. Qərizələr və instinktlərin olması bizim fizioloji, cismi, maddi həyatımızın təravətini, mövcudluğunu, davamlılığını təmin edir. Fitri istəklər də ruhun təkamülünü, mənəvi təkamülünü təmin etmək üçündür.

İnsanın nəfsinin instinktlər və qərizələr müstəvisində istəkləri öz-özlüyündə pis deyil. Bunlar, özlüyündə xeyir məqsədlər üçün qoyulub. Amma onların ardınca kor-koranə getmək zərərlidir. İradəli və seçimli vəziyyətimiz var. Gərək ağıl işığını onların üzərinə salaq, ondan sonra seçim edərək, həyata keçirək. Onlar özü-özlüyündə bizim maddi inkişafımız üçün çox zəruridirlər. Amma iradə və seçimsiz, ağıl işığını salmadan onlar bizi qaranlığa tərəf aparır.

Həvayi-nəfsin mahiyyətin mahiyyətinə nəzər saldıqda görürük ki, həvayi-nəfs o zaman təhlükəyə çevrilir ki, ağılı işə salmırıq, seçim etmədən təmini ilə məşğul oluruq. Deməli, biz imanımızın oyaq olmasını istəyiriksə, instinktlərimizin istəklərinə ağıl işığı salmalıyıq. Əgər ağıl işığı salmasaq, onlar tam olaraq həvayi-nəfsin sərəncamında qalacaq və bizləri məhvə doğru aparacaq.

## Əhli-Beytin (ə) təqdimatında həvayi-nəfsin təhlükəsi

**Həzrət Rəsulallah (s) buyurur:** “O şeylər ki, özümdən sonra ümmətim üçün qorxuram, biri - haram gəlirlər, ikincisi - gizli həvapərəstlik, üçüncüsü - ribadır”.

Həzrət Peyğəmbər (s) xəbərdarlıq edir ki, insan üçün ən təhlükəli məqamlardan biri həvayi-nəfsin ona gizli təsir etməsidir.

**Həzrət İmam Sadiq (ə) buyurur:** “O kəsin ki, daxilindən, qəlbindən moizə edəni və ruhundan, içindən, canından olan çəkindirəni olmaya, ona yol göstərən həmdəmi olmaya, düşməni - həvayi-nəfs və şeytan (lən) onun üzərində qələbə çalar”.

İmam Sadiq (ə) bəyan edir ki, hər bir insanın içərisindən moizə edən - vicdanının səsi, içərisindən onu çəkindirən - təqva, özümüzdən kənardan bizə yolgöstərən - moizə, nəsihət, mömin dost, mömin mühit olmasa o zaman həvayi-nəfs və şeytan (lən) ona qalib olur. Onlar insana qalib gələrsə, insanın imanının diri olması mümkün olmaz. Bilirik, istəyirik, amma bildiklərimizi həyata keçirmək istəsək də, həyata keçirə bilmirik. Sanki, yandırmağa odunumuz var, onu yandırmaq üçün kibritimiz də var, amma alışması üçün oduna nə qədər vururuqsa - yanmır, çünki yağış yağıb odunu yaş edib.

Həvayi-nəfs elə bir atmosfer yaradır ki, insanın imanının diri olmasına imkan vermir. Ona görə buyurulur ki, əgər özümüzü tanısaq, Allahı tanıyarıq. Əgər özümüzü tanısaq, sözsüz ki, düzələrik. İçərimizdə, daxilimizdə bu qədər məsələlər var ki, biz onlardan xəbərsiz oluruq, qəflət edirik. Allah içərimizdə bu qədər nemətlər, imkanlar qoyub.

İmamla (ə) adi bir ümmət başçısının fərqi həm də bunda idi. İlahi İmam (ə) həm də bizim mənəvi təkamülümüzə cavabdeh olan kəsdir. İlahi İmam (ə) tək bizim yeməyimizi, içməyimizi təmin etməyə görə cavabdeh deyil, həm də mənəvi təkamül üçün cavabdehdir. Peyğəmbərimizin (s) Mədinədə qurduğu o mübarək sistem tək aclığı, susuzluğu, tək bu kimi instinkt və qərizələri həll etmirdi. Bütün bunların vasitəsilə insanların fitri istəkləri təlim və tərbiyə olunurdu, nəticədə Bilallar, Əbazərlər yetişirdi. Fitri istəklərin inkişafına meydan açılırdı.

Günümüzdə bir atanın evdə, ailədə vəzifəsi yalnızca ailənin instinktlər və qərizələr müstəvisində istəklərini təmin etmək deyil, həm də ailə üzvlərinin fitri istəklərini təlim-tərbiyə edib, formalaşdırıb yetkin hala çatdırmaqdır. Bu zaman övlad iradəvi seçimlər edib, Allah bəndəsi ola bilər.

İki dost o zaman həqiqi dost sayılar ki, bir-birinə maddi ehtiyaclarının ödənməsində dəstək olmaqla yanaşı, bir-birlərinə mənəvi həmdəm olsunlar, fitri istəklərlərinin təlim-tərbiyə olunması, insani format əldə etməsi bu dostluqda baş tutsun.

**Allahım, bizlərə həvayi-nəfsimizi nəzarətdə saxlamağı nəsib et!**

**Allahım, bizləri gizli həvapərəstlikdən Özün amanda saxla!**

**Allahım, bizlərə daxildən gələn fitri istəklərimizi inkişaf etdirməyi nəsib et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 221 (7110) 19 oktyabr 2018




## 5 dollarlıq bilet aldı, 100 min dollar uddu

Amerikanın Merilend ştatındakı Çevi Çeyz şəhərində yaşayan qadın iki dəfə 50 min dollar məbləğində lotereya udub. Bu barədə o, "Maryland Lottery" jurnalına açıqlama verib. Qadın iki dəfə qiyməti 5 dollar olan lotereya bileti alıb ki, orada qoruyucu qatı silmək lazım idi. İlk dəfə o, üç ay öncə qalib gəlib. 58 yaşlı amerikalı bildirib ki, bütün həyatı boyu lotereya oynasa da, heç vaxt əsas mükafatın qalibi olacağını düşünməyib, özü də iki dəfə. Özünün ikinci xoşbəxt biletini alanda isə bunu qızından gizlədib. Çünki qızı onun lotereya bileti almağına o qədər yaxşı baxmırdı. "Mən ilk dəfə 50 min dollar udanda qızım məndən oynamağı dayandırmağımı xahiş etdi".

Qızı da anası kimi bu sonucdan təəccüblənib və onu lotereya kampaniyasına qədər ötürüb. "Anam ilk dəfəki uduşla kruizə getməliydi. Amma nəticədə bu pulların bir hissəsini öz hesabına keçirdi, qalanını isə ailəsinə sərf etdi. Bu dəfə isə söz verdi ki, haradasa çox isti və günəşli bir yerə gedəcək".

# Mesajlarının sayı sənin etikanı göstərir

İngiltərədəki Vinnipeq Universitetinin araşdırmasına görə, cib telefonu ilə mesajlaşma insanlar arasındakı münasibətlərə pis təsir edir. Belə ki, mesaja önəm verən şəxslərdə özünə arxayınlıq hissi azalır, lüksə daha həris olurlar. Araşdırmada Vinnipeq Universitetinin psixologiya fakültəsində oxuyan 2300 tələbədən alınan rəylər üç il boyunca yığılıb. Araşdırma nəticəsində çox mesajlaşan gənclərin çox sürətli və səthi düşündüyü ortaya çıxıb. Bundan başqa, tez-tez mesajlaşan gənclərin əxlaqi, estetik və ruhsal məqsədlərə az, imic və varlılığa isə çox dəyər verdiyi sübut edilib.



Araşdırmaya görə, gündə 100-dən artıq mesaj yazan bir adam 50 və daha az mesaj göndərənlərlə müqayisədə etik dəyərlərə, yaşam prinsipinə 30 faiz daha az önəm verirlər. Bundan başqa, cib telefonu ilə mesajlaşan tələbələrin azlıq qruplara münasibətdə daha dözümsüz olduğu da üzə çıxıb.

# Özünü yalandan xərçəng xəstəsi kimi göstərdi və həbs olundu



Avstraliya sakini Lüsi Viland yalandan özünü xərçəng xəstəsi kimi təqdim etdiyi üçün həbs olunub. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Kvinslend ştatındakı Taunsvill şəhərində yaşayan qadın 18 oktyabrda məhkəmə qarşısına çıxıb. 27 yaşlı qızı dələduzluqda ittiham edibləр. O, bloq yaradaraq orada xərçəng xəstəsi olaraq pul yığmağa başlayıb. O, hamıya deyib ki, yumurtalıqlarındakı xərçəng pik həddədir. Hamını xəstə olduğuna inandırmaq üçün Viland başını keçəl qırxdırdı və xəstəxanada şəkil çəkdirdi.

ABC News-un verdiyi xəbərə görə, hərbi qüvvələrdə xidmət edən sevgilisi də ona baş çəkmək üçün icazə alıb, yanına gəlib. Polis hələ də bilmir ki, sevgilisi onun gerçəkdən xəstə olub-olmadığından xəbərdar idi, ya yox. Bu müddət ərzində qız xəstəlik adı ilə 55 min Avstraliya dolları yığmağa nail olub. Detektiv Kris Losonun dediyinə görə, bəzi şəhər sakinləri Vilandın o qədər də parlaq olmayan keçmişi barədə danışıblar. İndi isə istintaq onun bu qədər pulu nəyə xərclədiyini aydınlaşdırmağa çalışır. GoFundMe-dəki səhifə və Vilandın bloqu artıq silinib. İstintaqın Viandın hərəkətindən zərər çəkən hər kəsin bu barədə məlumat verməsini xahiş edir. Qız girov qarşılığında azadlığa çıxıb və dekabrda yenidən məhkəmə qabağına çıxıb.




**QOÇ** - Kifayət qədər maraqlı bir gün yaşayacaqsınız. Yeni insanlarla ünsiyyət, tanışlıq və perspektivli sövdələşmələr gələcəyə nikbin baxmağınıza səbəb olacaq. Doğmalarınızla mümkün qədər əlaqə saxlayın.

**BUĞA** - Ulduzlar ünsiyyətdə olduğunuz insanların bədxahlığına neytral yanaşmağınızın əleyhinədir. Çünki uğursuzluqlarınızın əksəriyyəti cəsarətsizliyinizdən irəli gəlir. Aktiv olun ki, ədalət qalib gəlsin.

**ƏKİZLƏR** - Proqnozunuzu hazırlayarkən istifadə etdiyimiz bütün mənbələr daha çox səhhətinizə fikir verməyinizin vacibliyini önə çəkir. Bunu bacarsanız, heç bir narahatlıqla rastlaşmayacaqsınız. Səfərə çıxmayın.

**XƏRÇƏNG** - Maraqlı tanışlıqlar yolunuzu gözləyir. Bu, perspektivlərinizə xidmət etdiyi təqdirdə, fəaliyyətə də müəyyən qədər fasilə vermək olar. Başqalarının sizə verdiyi istənilən sirrə sadiq qalın.

**ŞİR** - Qarşınızda sakit bir gün durur. Neytrallığınızı qorumaqla yalnız uğur qazanacaqsınız. Fəaliyyət müstəvisində başqalarının dediyindən daha çox öz təcrübənizə bel bağlayın ki, uduzmayasınız.

**QIZ** - Hər mənada düşərli gün demək olar. Çünki nəzərdə tutduğunuz planların böyük əksəriyyətini həyata keçirə biləcəksiniz. Üstəlik, maliyyə çətinlikləriniz də aradan qalxacaq.

**TƏRƏZİ** - Bürcünüzün Göy qübbəsində aktiv nöqtəyə çatması digər Zodiak işarələri ilə müqayisədə sizin daha enerjili və işlərinizin daha perspektivli olacağınıza təminat verəcək. İşgüzar sövdələşmələrdən çəkinməyin.

**ƏQRƏB** - Astroloji göstəricilər sevgi ümmanına baş vurmağınızı tövsiyə edir. Nəzərə alın ki, hazırda təkanverici qüvvəniz məhəbbətdir. Maliyyə və iş barədə gözləmə mövqeyi tutmağınız daha səmərəlidir.

**OXATAN** - Saat 12-dən etibarən iş müstəvisində bəzi kəm-kəsirləriniz qaydasına düşməlidir. Sənədləşdirmə işlərində diqqətli olun. Həlledici anlarda təcrübəli adamlarla məsləhətləşməkdən çəkinməyin.

**OĞLAQ** - Təəssüflər olsun ki, ötən gün mövcud olan gərginliyiniz davam edə bilər. Bunun üçün gərək Tanrı nizamına əl uzatmayasınız. Çətinliyinizi dəf etmək üçün etibarlı dostlarınızla bir araya gəlin.

**SUTÖKƏN** - Gün ərzində mənfi enerjili Ayın sizin bürcdə qərar tutması ümumi işlərinizdə lənglik yaradacaq. Bu səbəbdən bütün vacib işlərinizi mümkün qədər təxirə salın. Qidanıza diqqət yetirin.

**BALIQLAR** - Qarşınızda xoş təəssüratlar yarada bilən hadisələr durur. Odur ki, öhdəliyinizdə duran vacib işlərin çoxusuna yetişə bilərsiniz, xüsusən də yeni iş qurmaq istiqamətində. Maddi durumunuz da qənaətbəxşdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Oğurluq etmək üçün fərqli kostyum aldı



Ninza kostyumu geyinən oğru Amerikanın Ankoric şəhərindəki komikslər dükanından oğurluq edib. Bu barədə lenta.ru saytı KTVA CBS telekanalına istinadən xəbər verib. Qarət iki gün öncə baş verib. Naməlum şəxs bağlı mağazaya girib, zalları ələk-vələk edib və piştaxtadakı oyuncaqlardan birini oğurlayaraq qaçıb. Polis şübhələnir ki, bunu edən professional oğru deyil. Çünki belə biri olsaydı, kassadakı pullara və digər dəyərli oyuncaqlara da əl uzadardı. Ehtimal edilir ki, bu, uşağının hədiyyə istəyini yerinə yetirə bilmədiyi üçün oğurluq edən bir atanın əməlidir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.